# RİSALƏ-İ NURDA BATINİ TƏFSİR TƏHLÜKƏSİ

HARUN YƏHYA

# MÜNDƏRİCAT


Giriş

13-cü əsrin böyük mücəddidi, Bədiüzzaman Səid Nursi

Aldadıcı bir cərəyan: “Risalə-i Nurda batın təfsirçliyi”

Batin təfsirçiləri Risalə-i Nuru necə şərh edirlər?

Axırzaman və mehdiyyət mövzusunda edilən batini təfsirlər hansılardır? Bədiüzzaman nə deyir? Təfsirçilər nə deyir?

Bədiüzzaman risalələrin təfsir edilməsinə hansı baxımdan yanaşır? Bədiüzzaman həyatda olarkən risalələri təfsir etmə yanaşmasına izn vermiş ola bilərmi?

Nəticə

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları

aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Yaxın zamanda ən böyük İslam alimlərindən biri olan Bədiüzzaman Səid Nursi həzrətlərinin yazmış olduğu Risalə-i Nur Külliyatı yüz minlərlə insanın hidayətinə vəsilə olmuş çox əhəmiyyətli əsərlərdir. Bədiüzzamanın səmimi üslubu, təfəkkür və hikmətli izahatı, hər oxuyan üçün əhəmiyyətli bir yol göstərici və hidayət rəhbəri olmuşdur. Risalə-i Nurların geniş kütlələr üzərindəki bu səmimi təsiri olduqca aydındır. Hər biri olduqca səmimi nümunələrlə toxunulmuş olan bütün bu mövzuların izahındakı sadəlik və aydınlıq hər təbəqədən olan insanın asanlıqla başa düşə biləcəyi şəkildədir.

Ancaq bütün bu üstün xüsusiyyətlərinə baxmayaraq bəzi dairələrdə Bədiüzzamanın əsərlərinin aydınlaşması üçün təfsir olunması lazım olduğu şəklində səhv bir qənaət vardır. Guya risalələrdə şifrəli və mürəkkəb bir izahatın olduğu, birbaşa oxumaqla başa düşülməyəcəyi və bu şifrələri də ancaq bu mövzuda məlumat sahibi olan müəyyən kəslərin həll edəcəkləri düşünülür. Bədiüzzamanın aydın izahının arxasında bir də batini məna gizləndiyi, buna görə də Bədiüzzamanın izah etmək istədiyi həqiqətlərin də ancaq batini təfsir ilə aydınlaşa biləcəyi iddia edilir. Bu dünyagörüşü bəzən elə bir səviyyəyə gəlib çata bilir ki, Bədiüzzamana böyük bir sevgi və hörmət bəsləyən kəslər belə Bədiüzzamanın dediklərinin aydınlaşa bilməsi üçün **"Risalələrdəki sözlərinin kafi olmayacağını"** iddia edirlər. Bu sözləri yalnız xüsusi sirlərə vaqif, xüsusi təfsir gücü olan, xüsusi qabiliyyətlərə və hisslərə sahib bəzi xüsusi kəslərin "batini təfsir" edərək başa düşə biləcəyi fikrini müdafiə edirlər.

Risalələr mövzusundakı bu yanaşma tərzi xüsusilə də, Bədiüzzamanın Axırzaman və hz. Mehdi mövzusundakı şərhlərində gündəmə gəlir. Bədiüzzamanın və onun qələmə almış olduğu Risalə-i Nur Külliyatının Mehdilik vəzifəsini boynuna götürdüyü istiqamətində bir hüsnü zənnə sahib olan kəslər, Bədiüzzamanın xüsusilə də bu mövzunu rədd edən şərhlərini qəbul etməkdən çəkinir və bu sözləri müxtəlif formalarda şərh etməyə üz tuturlar.

Şübhəsiz ki, bu vəziyyət bəhsi keçən düşüncəylə hərəkət edən kəslərin bəzi mövzularda bir çox narahatlıqlar keçirmələrindən qaynaqlanır. Yoxsa, Bədiüzzamanın risalələrdə yer alan hər bir sözünün nə qədər hikmətli və aydın olduğu aydın və məlum olan bir həqiqətdir. Hər sözü həqiqətləri ehtiva edən bu risalələr, Bədiüzzaman Səid Nursinin yaşadığı dövrdə nəşr olunmuşdur. Bədiüzzaman əsərlərini şəxsən özü yeniləmiş və düzəltmişdir. Milyonlarla adamın bu mövzuları əsərlərindən öyrənəcəyini bilərək qələmə alan Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərindəki mənaları ümmətinə nəql edərkən, şübhəsiz ki, həmişə olduğu kimi zərrə qədər də doğrulardan kənara çıxmamışdır. Nəyin doğru olduğunu düşünübsə və həqiqi qənaəti nə isə onları yazmışdır. Buna görə də əsərləri tamamilə dolğun həqiqətləri əks etdirir. Bədiüzzaman, "bir Risalə-i Nur tələbəsi olaraq mən də bunlara tabe oluram" deyərək, yaşadığı müddət ərzində əsərlərində yazdıqlarının doğruluğunu dəfələrlə təsdiq etmişdir. Bütün bunlardan əlavə Bədiüzzaman əsərlərində sözlərinin yenidən təfsir edilməsinə qarşı olduğu

istiqamətindəki fikirlərini də aydın şəkildə bəyan etmişdir. Risalələrin ikinci dəfə təfsir edilməsinin, sözlərini əslindən uzaqlaşdıraraq mənasını itirməsinə və səhv çıxarışlara səbəb olacağını ifadə etmişdir. Buna görə də bütün bunlara baxmayaraq, yaşadığı əsrin mücəddidi olan Bədiüzzaman Səid Nursi kimi böyük bir İslam aliminin əsərlərinin başa düşülmədiyi, buna görə də yığcam bir şəkildə qələmə almış olduğu, açıq-aşkar sözlərinin yenidən təfsir edilməsinin lazım olduğu istiqamətindəki fikirləri həm səhvdir, həm də Bədiüzzamanın şəxsən öz ifadələriylə tamamilə ziddiyyət təşkil edir. Belə bir yanaşma tərzi böyük bir mücəddidin əsərlərinin hamısına şübhə ilə yanaşılmasına gətirib çıxaracaq təhlükəli bir cəhd olacaqdır. Unudulmamalıdır ki, böyük mücəddid Bədiüzzamana qarşı göstəriləcək həqiqi sevgi və hörmət, onun böyük bir səmimiyyətlə qələmə aldığı əsərlərinə sahib çıxmağı, onun həqiqətdə demək istədiklərini tam başa düşüb onu dəstəkləməyi tələb edir.

Bu kitabın məqsədi də bu istiqamətdə **“batin təfsirçiliyi”** mövzusunu ələ almaq, bu düşüncə ilə aparılan təfsirlərin səhvini və Bədiüzzamanın izahlarıyla nə qədər ziddiyyət təşkil etdiyini şəxsən Bədiüzzaman Səid Nursinin sözləri ilə ortaya qoymaqdır. Belə bir üsulun nə cür nəticələrə yol aça biləcəyini, risalələr və Bədiüzzamanın sözləri üzərində hansı zərərlər meydana gətirə biləcəyini xatırladır.

# HİCRİ 13-CÜ ƏSRİN BÖYÜK MÜCƏDDİDİ, BƏDİÜZZAMAN SƏİD NURSİ

Keçən əsrin mücəddidi olan Bədiüzzaman Səid Nursi, həyatını Allahın varlığını və Ucalığını izah etməyə, İslamın dəyərlərini yüksəltməyə həsr etmiş, bu yolda bir çox çətinliklərlə qarşılaşmış, dərin imana sahib, böyük bir mütəfəkkirdir. Ömrü boyu böyük bir fikri mübarizə nümunəsi nümayiş etdirmiş, hikmətli qərar və davranışlarıyla müsəlmanlara nümunə və qabaqcıl olmuş mübarək bir şəxsdir. Əsərlərində ortaya qoyduğu elm, ixlas, bəlağət və daha bir çox xüsusiyyətdən, özünün bəlkə də İslam tarixinin ən böyük vəlilərdən biri olduğu aydın olur.

Bədiüzzaman Səid Nursi, geniş məlumatlar ehtiva edən beş min səhifəlik Risalə-i Nur Külliyatı ilə milyonlarla insanın hidayətinə vəsilə olmuş böyük bir mütəfəkkirdir. Hicri 13-cü əsrin mücəddidi olan Bədiüzzaman, əsərləriylə müsəlmanları maarifləndirmiş, Quran əxlaqını ən gözəl şəkildə yaşamış və mübarizəsiylə nümunəvi bir şəxsiyyət olmuşdur. Yaşadığı dövr, baş verən dünya müharibələri ucbatından bəlkə də tarixin ən çətin, ən sıxıntılı illəri olmuşdur. Osmanlı imperiyasının süquta uğradığı illərdən, vəfat etdiyi 1960-cı ilə qədər, hökm sürən maddi, mənəvi çox böyük çətinliklərin yaşandığı bir dövrdə sarsılmaz bir fikri mübarizə aparan Bədiüzzaman dəyərli fikirləriylə millətimizə zərər verə biləcək ideologiyalara maneə olmağa çalışmış və iman həqiqətlərinin təbliği ilə müsəlmanların mənəvi istiqamətdən güclənmələrinə vəsilə olmuşdur. (Allah ondan razı olsun.)

Bədiüzzaman həzrətləri böyük bir mücəddid olaraq, həmişə inandığı kimi yaşamış və düşündüyü kimi danışmışdır. Səksən yeddi illik uzun ömrünü ixlas və səmimiyyət ilə inandığı Quran əxlaqını izah edərək keçirmişdir. Bu xidməti əsnasında həmişə doğruları ifadə etmiş, hətta buna görə də iyirmi səkkiz ilini həbsxanalarda və sürgün şəraitində çətin şərtlər altında keçirmişdir. Buna baxmayaraq heç vaxt deyilməsi lazım olan həqiqətləri ifadə etməkdən çəkinməmiş, hansı şərt və mühitdə olursa olsun heç bir mövzuda, xüsusilə imani mövzularda Quran və Peyğəmbərimiz (s.ə.v)-in sünnətindən kənara çıxmadan həqiqətləri çox aydın və dəqiq izah etmişdir. Başqaları tərəfindən qəribə görüləcək, səhv başa düşüləcək deyə doğruları gizlətməyin və mənası dəyişəcək formada sözü əskik və ya fərqli deməyin Quran əxlaqına zidd olduğunu da yenə Bədiüzzaman ifadə etmişdir. Bədiüzzaman, deyilən hər sözün doğru olmasının lazım olduğunu ifadə edərək doğruluğun əhəmiyyətini də belə vurğulamışdır:

*"Yol ikidir: Ya sükut etməkdir (susmaqdır).* ***Çünki deyilən hər sözün doğru olması lazımdır.*** *Və ya sıdkdır (doğruluqdur). Çünki İslamiyyətin əsası sıdkdır (doğruluqdur). İmanın xassəsi sıdkdır (doğruluqdur). Bütün kəmalata isal edici (yaxşılıqlara çatdıran) sıdkdır (doğruluqdur). Əxlaq-ı aliyənin (yüksək əxlaqın) təməli sıdkdır (doğruluqdur). Terakkiyatın məhvəri (İrəliləmənin mərkəzi) sıdkdır (doğruluqdur). Aləm-i İslamın nizamı (İslam aləminin quruluşu) sıdkdır (doğruluqdur). Nev-i bəşəri kabə-i kəmalata isal edən,*

*(İnsanları əxlaq və tərbiyəyə çatdıran) sıdkdır (doğruluqdur). Əshab-ı kiramı (səhabələri) bütün insanlara təfəvvüq etdirən (üstün edən) sıdkdır (doğruluqdur). Məhəmməd-i Haşimi Əleyhissalatu Vəssalamı məratib-i bəşəriyyənin (insanlıq dərəcəsinin) ən yüksəyinə çıxaran sıdkdır (doğruluqdur)". (İşarat-ül İcaz, səh. 82)*

Buna görə də Bədiüzzaman özünə yönəldilən hər suala doğru cavab vermiş və əsərlərinə də doğru olaraq köçürmüşdür. Axırzaman ilə əlaqədar özünə yönəldilən suallara qarşı da heç vaxt susqun qalmamış, hər mövzunu ən incə təfərrüatına qədər izah etmişdir. Buna görə də bu mövzularda izah etdiyi hər sözü, hər izah etdiyi mövzu kimi tamamilə həqiqətləri əks etdirir.

# ALDADICI BİR CƏRƏYAN "RİSALƏ–İ NURDA BATIN TƏFSİRÇİLİYİ"

## BATİN TƏFSİRÇİLİYİ NƏDİR?

Batin təfsirçiliyi, Bədiüzzamanın sözlərinin risalələrin bütün oxucular tərəfindən aydınlaşa bilməyəcək bəzi gizli və şifrəli mənalar daşıdığını iddia edir. Bu dünyagörüşünə görə, Bədiüzzamanın düşüncələrini öyrənmək istəyən kəslərin, Bədiüzzamanın sözlərini risalələrdən deyil, batin təfsirçilərinin şərhlərindən başa düşməyə çalışmaları lazımdır.

## BU DÜŞÜNCƏYƏ ƏSASƏN BƏDİÜZZAMANIN SÖZLƏRİNİ TƏKCƏ KİMLƏR BAŞA DÜŞƏ BİLƏR VƏ BATİN TƏFSİRÇİLİYİNİ KİMLƏR EDƏ BİLƏR?

Bədiüzzamanın risalələrdə yer alan sözlərinin, sadəcə bəzi xüsusi sirlərə vaqif, xüsusi təfsir gücü olan, xüsusi qabiliyyətlərə və hisslərə sahib bəzi xüsusi kəslərin **"batini təfsir"** edərək başa düşə biləcəkləri fikrini müdafiə edir. Buna görə də Bədiüzzamanın risalələrdə yazmış olduğu sözlərini də ancaq sadəcə bu məlum şəxslərin başa düşə biləcəyi iddia edilir.

## RİSALƏLƏRDƏ BATİNİ TƏFSİR LAZIM OLDUĞUNA İNANILAN BAŞLICA MÖVZULAR HANSILARDIR?

Batin təfsirçiliyinə görə, aydınlaşa bilməsi üçün təfsir edilməsi lazım olan başlıca mövzular arasında Bədiüzzamanın Axırzaman, hz. İsanın və hz. Mehdinin gəlişi və İslam əxlaqını bütün dünyaya hakim etməsi ilə əlaqəli şərhləri yer alır. Bədiüzzamanın bu mövzulardakı izahları olduqca açıq və aydın olduğu halda, Bədiüzzamanın bu sözlərinin əslində aydın izahından tamamilə kənar xeyli fərqli mənalar ehtiva etdiyi və bunların da ancaq batini təfsir edə bilən kəslər tərəfindən izah edilə biləcəyi düşünülür.

Bədiüzzaman əsərlərində yüzlərlə səhifə boyunca hz. Mehdinin sahib olacağı xüsusiyyətlər haqqında məlumat vermiş, özünə mehdiyyət mövzusunda hüsnü-zənn ilə yaxınlaşan kəslərə isə özünün hz. Mehdidə olması lazım olan xüsusiyyətləri daşımadığını ifadə edərək cavab vermişdir. Ancaq Bədiüzzamana bu istiqamətdə hüsnü-zənn bəsləyən bəhsi keçən kəslər, Bədiüzzamanın bu sözlərinin əslində həqiqətləri əks etdirmədiyini, Bədiüzzamanın qənaətinin bunun tam tərsi istiqamətində olduğunu və bunları da sözlərindəki şifrəli izahatlarda gizli olduğunu düşünürlər. Halbuki, kitabın sonrakı hissələrində təfərrüatlı olaraq tədqiq olunacağı kimi, Bədiüzzaman əsərlərində özünün Mehdi olmadığını və bunun dəlillərini, yüzlərlə səhifə boyunca etdiyi izahlarla çox aydın və şərhə yer verməyəcək şəkildə izah etmişdir.

## BƏDİÜZZAMANIN SÖZLƏRİNİN ƏSLİNDƏ TAM TƏRS MƏNALAR EHTİVA ETDİYİNİ İDDİA ETMƏK DOĞRUDURMU?

Milyonlarla adamın izah etdiyi mövzuları əsərlərindən öyrənəcəyini bilərək qələmə alan Bədiüzzaman Peyğəmbərimiz (s.ə.v)-in hədislərindəki mənaları cəmiyyətə nəql edərkən, həmişə olduğu kimi zərrə qədər də olsa doğrulardan kənara çıxmamışdır. Nəyin doğru olduğunu düşündübsə və həqiqi qənaəti nə isə onları yazmışdır. Buna görə də əsərləri tamamilə dolğun həqiqətləri əks etdirir.

Batini təfsir anlayışı isə Bədiüzzamanın sözlərinin əslində həqiqətləri əks etdirmədiyini, Bədiüzzamanın əsərlərində inandığı şeylərin tam əksinə məlumatlar verərək onlarla ildir ki, guya bütün İslam ümmətini aldatdığını, əsl inandığı həqiqətlərin isə sadəcə bəhs edilən batini təfsirçilər tərəfindən aydınlaşa biləcəyi fikrini müdafiə edir. Belə bir düşüncə tərzi isə hər nə qədər yaxşı niyyətlə irəli sürülsə də, şübhəsiz ki, Bədiüzzaman Səid Nursi həzrətlərinə qarşı çox qatı bir təhqir, böyük bir zülm və böhtan olar. Çünki bu, Bədiüzzaman kimi dəyərli və üstün əxlaqlı bir şəxsin bu mövzuda yüzlərlə səhifə boyunca yazdıqlarının “yalan” olduğunu iddia etmək mənasına gəlir ki, bu da belə dəyərli bir İslam aliminə qarşı edilən çox böyük bir böhtan və iftiradır.

Belə bir yanaşma tərzi, bu düşüncəylə hərəkət edən kəsləri töhmət altında saxlayır. Bədiüzzaman kimi dərin imanlı böyük bir mücəddidin, əsərlərində düşündüyü və inandığı şeylərin tam tərsinə şərhlər etməsindən heç cür söhbət gedə bilməz. Buna görə də, Bədiüzzamanın vəfatından illər sonra belə bir iddia ilə ortaya çıxmaq, hər nə qədər yaxşılıq adına, Bədiüzzamanı sevmə adına edilmiş belə olsa, Bədiüzzaman adına çox böyük bir ittiham olar. Onu yalançılıqla ittiham edən və yüzlərlə səhifə ilə ümməti aldatdığını iddia edən belə bir yanaşma isə heç bir vicdanın qəbul etməyəcəyi bir davranışdır.

Həmçinin bu, belə dəyərli bir mücəddidin qələmə aldığı risalələrin hamısını şübhəli hala gətirəcək olduqca təhlükəli bir cəhddir. Bunun kimi bir çox adam, bir-birindən fərqli iddialarla ortaya çıxıb “Bədiüzzaman Səid Nursi burada belə demişdir amma bunların hamısı bir taktikadır, yalandır, həqiqəti bizə dedi” desə, bu nə dərəcədə etibarlı olar? Belə olduğu halda bir müddət sonra Risalə-i Nurda yer alan hər mövzu üçün bir şey deyilə bilər və Bədiüzzamanın əsərləri həqiqi mənasından və hikmətindən getdikcə uzaqlaşar. Belə bir təhlükənin qarşısını almaq isə Bədiüzzaman kimi dəyərli bir İslam aliminin şəxsən yazıb təsdiq etdiyi açıq-aşkar sözlərini qorumaqla mümkün olacaqdır.

## RİSALƏ-İ NUR KÜLLİYATI HƏR OXUCUNUN BAŞA DÜŞƏ BİLƏCƏYİ HİKMƏTLİ ƏSƏRLƏRDİR

Bədiüzzamanın açıq-aşkar və hikmətli sözlərindən ibarət risalələrdə izah edilənlər oxucular tərəfindən asanlıqla başa düşülür. Bədiüzzamanın ifadəsiylə “sadə insandan ya da bir orta məktəb şagirdindən bir filosofa qədər oxuyan hər kəsin asanlıqla başa düşə

biləcəyi” *(Kastamonu Lahikası, səh. 70; Şualar, səh. 549)* qədər aydın sözləri, batini mənası fərqli deyərək başqa şəkildə təfsir etmək və şərh etmək olduqca səhvdir. Bu cür bir dünyagörüşü risalələrin əslindən uzaqlaşmasına səbəb olacaq bir fəaliyyətdir. Belə olduqda, istəyən hər kəs Bədiüzzamanın sözlərinə öz dünyagörüşüylə yeni bir şərh gətirə biləcək və səhv çıxarışlara yol açacaqdır. Beləliklə də, risalələr Bədiüzzamanın həqiqi sözlərini deyil, bu sözləri öz bilik və anlayışı daxilində təfsir edən kəslərin düşüncələrini əks etdirən əsərlərə çevriləcəkdir. Belə bir təfsir məntiqinin Bədiüzzamanın yığcam və səmimi bir dillə qələmə aldığı Külliyyatı üzərində necə korlayıcı bir təsir meydana gətirəcəyi diqqətlə nəzər yetirilməsi lazım olan bir mövzudur.

Bədiüzzamanın şəxsən özü əsərlərində dəfələrlə bu mövzunun əhəmiyyətini ifadə etmiş, bu cür anlayışa qarşı olduğu istiqamətindəki fikirlərini bəyan etmişdir. Bu sözlərindən birində, Bədiüzzaman belə bir təfsir anlayışının necə sui-istifadə ediləcəyini və bu yolla risalələrdə izah edilən həqiqətlərin necə əslindən uzaqlaşıb dəyişəcəyini belə xatırlatmışdır:

*Nurun mətninin izaha ehtiyacı olsa, ya sətirin üstündə, ya da kənarda haşiyəciklər (açıqlamalar) yazılması daha münasibdir (uyğundur). Çünki mətnin içərisinə girsə, çoxaldılan nüsxələr ayrı-ayrı olar, onları təshih (düzəltmək) lazım gələr.* ***Həm sui-istifadəyə şərait yaranar, muarızlar (qarşı çıxanlar) da bundan istifadə edərlər. Həm hər kəs sənin kimi muhakkik (həqiqəti tədqiq edib tapan), müdakkik (ətraflı tədqiq edən, ən kiçik gizli şeyləri belə görməyə çalışan) olmaz, səhv məna verər, bir söz əlavə edər, əhəmiyyətli bir həqiqəti itirməyə səbəb olar.*** *Mən təshihatımda (düzəltmələrimdə) belə zərərli əlavələri çox gördüm ... (Emirdağ Lahikası Elyazma, səh. 661)*

Bədiüzzaman əsərlərində həmçinin, **“Risalə-i Nurlar hər kəs tərəfindən başa düşülə bilməz”** inancına sahib olanlara bu əsərlərin **“qadın, kişi, məmur və tacir, alim və filosof kimi hər cür xalq təbəqəsinin oxuyub başa düşə biləcəyi”** qədər asan başa düşülən olduğunu dəfələrlə vurğulamışdır. Şübhəsiz ki, Bədiüzzamanın şəxsən öz əsərləri haqqında ifadə etdiyi bu şərhləri, Risalə-i Nur Külliyatının batini olaraq təfsir edilməsi lazım olduğu düşüncəsinə yenə Bədiüzzamanın dilindən aydınlıq gətirir və bu dünyagörüşünün səhvini aşkar edir. Bədiüzzamanın bu mövzunu izah edən sözlərindən bəziləri belədir:

***...Bütün bu risalələrdə, bütün dərin həqiqət, təmsilat (nümunələr) vasitəsiylə, ən ami (cahil) və ümmi (elmsiz) olanlara qədər dərs verilir.*** *Halbuki, o həqiqətlərin çoxunu böyük alimlər “təfhim edilməz” (izah edilə bilməz) deyib, nəinki avama, bəlkə havassa da (elm sahibi kəslərə də) çatdıra bilmirlər. (Mektubat, səh. 373)*

*...Risalə-i Nur bu vəzifəni, ən dəhşətli bir dövrdə və ən lazımlı və nəzakətli bir vaxtda, hər kəsin başa düşəcəyi bir tərzdə, hakakik-i Quraniyyə (Quran həqiqətləri) və iman həqiqətlərinin ən dərin və ən gizlilərini çox tutarlı bürhanlar (dəlillər) ilə isbat edər. (Şualar, səh. 748)*

***Risalə-i Nur indiyə qədər heç bir elm adamının tam bir vuzuh (açıqlıq, dəqiqlik və başa düşülən) bir tərzdə isbat edə bilmədiyi ən muğlak (üstü-örtülü, başa düşülməsi***

***çətin olan) məsələləri, çox asan bir şəkildə ən sadə insan təbəqəsindən başlamış, ən ziyalı insan təbəqəsinə qədər hər kəsin qabiliyyəti səviyyəsində başa düşə biləcəyi bir tərzdə, şübhəsiz ki, tam razı edici bir şəkildə izah və isbat etməsidir.*** *Bu xüsusiyyət indi heç bir elm adamının əsərində yoxdur. (Gençlik Rehberi, səh. 240)*

*Risalə-i Nur,* ***bütün təbəqə-i bəşərə (insan qruplarına) həm mədrəsə, həm məktəb, həm ərazi, həm həkim, həm hakim olaraq, ən ami (cahil) avamdan, ən əhass-ı havassa (ən xalis elm sahiblərinə) qədər təhsil verib, təlim və tərbiyə etməsi bizim fikrimizcə məşhuddur (aşkardır, aydın şəkildə görünür).*** *(Kastamonu Lahikası, səh. 70)*

***...Risalə-i Nuru qadın, kişi, məmur və tacir, alim və filosof kimi hər cür xalq təbəqəsi oxuyub başa düşə bilər.*** *Öz istidadları (qabiliyyətləri) səviyyəsində əldə etdikləri məlumatlar nəticəsində ona bir qat bağlanırlar. Orta məktəblilər, tələbələr, professorlar, dosentlər və filosoflar da oxuyurlar. Bu münəvvər (təhsil almış, elm sahibi) siniflər fövqəladə istifadə etdikləri kimi, Risalə-i Nurun ecazkarlığını və yazı sənətindəki üstünlüyünü təsdiq edib heyrətlər içərisində bütün külliyyatı oxumaq iştiyakına (şövqünə və arzusuna) yiyələnərlər. (Şualar, səh. 549)*

*Bu rəğbət və şiddətli maraq heç bir psixoloq, sosioloq və filosofun əsərində görülməmişdir. Onlardan ancaq təhsilli insanlar istifadə edə bilmişlər.* ***Bir orta məktəb uşağı və ya oxumağı bacaran bir qadın, böyük bir filosofun əsərini oxuduğu vaxt ondan yararlana bilməmişdir. Lakin Risalə-i Nurdan hamı öz bilik səviyyəsinə görə istifadə edir.*** *(Şualar, səh. 549)*

## BƏDİÜZZAMANIN AXIRZAMANLA ƏLAQƏLİ İZAHLARI TƏFSİRƏ EHTİYAC OLMAYACAQ QƏDƏR AYDINDIR

### Axırzaman ilə əlaqədar mövzular birbaşa Risalə-i Nurdan mı, yoxsa batini təfsirçilərdən mi aydın olar?

Hicri 13-cü əsrin böyük mücəddidi Bədiüzzaman Səid Nursi Risalə-i Nur Külliyyatında gələcəyə dair bir çox əhəmiyyətli xəbər vermişdir. Demək olar ki, yarım əsr əvvəl yaşamış olmasına baxmayaraq, Bədiüzzamanın əsərlərində vermiş olduğu bütün məlumatlar və gələcəyə istiqamətli işarələr Allahdan bir rəhmət və möcüzə olaraq həmişə doğru çıxmışdır. Bədiüzzamanın gələcəyə dair müjdələdiyi hadisələr arasında Axırzamana istiqamətli hikmətli şərhləri da yer alır. Şübhəsiz ki, Allahın üstün bir elmlə dəstəklədiyi belə fərasət və elm sahibi bir şəxsin verdiyi bu məlumatlar, bütün müsəlmanlar üçün əhəmiyyətli bir rəhbər və yol göstərici xüsusiyyətə malikdir.

Bədiüzzamanın əsərlərində, hz. İsa və hz. Mehdinin hansı tarixlərdə və necə bir mühitdə zühur edəcəklərini, nə kimi fəaliyyətlər göstərəcəklərini, köməkçiləri, mübarizələri, İslam əxlaqını bütün dünyaya necə hakim edəcəkləri mövzularında geniş

şərhlər yer alır. Bədiüzzamanın bu mövzulardakı izahatları birbaşa oxumaqla, hər oxuyanın nəzərdə tutulan mənanı başa düşə biləcəyi qədər sadə və aydındır. Buna görə də, bu məlumatları “batini təfsir” adı altında yenidən şərh etməyə çalışaraq bu mövzulara müxtəlif şərhlər gətirmək, səmimi bir yanaşma tərzi olmayacaq və Bədiüzzamanın aydın şəkildə dediklərini rədd etmək mənasına gələcəkdir.

Necə ki, sonrakı bölmələrdə Bədiüzzamanın əlaqədar sözlərindən verilən nümunələrlə, Bədiüzzamanın bu mövzuları nə qədər dəqiq üslublarla, müzakirəyə və təfsirə yol verməyəcək qədər aydın bir şəkildə izah etdiyi asanlıqla görünəcəkdir.

## BATİN TƏFSİRÇİLƏRİ RİSALƏ–İ NURU NECƏ İZAH EDİRLƏR?

## AXIRZAMAN VƏ MEHDİLİK MÖVZUSUNDA EDİLƏN BATİNİ TƏFSİRLƏR HANSILARDIR? BƏDİÜZZAMAN NƏ DEYİR? TƏFSİRÇİLƏR NƏ DEYİRLƏR?

1-Bədiüzzaman "Özünün seyid olmadığını" deyir, "bu mövzuda doğru danışmamağın da dinə uyğun olmadığını" ifadə edir, təfsirçilər "xeyr, seyiddir" deyirlər.

**Bədiüzzamana görə:**

Hz. Mehdinin hədislərdə bildirilən ən əhəmiyyətli xüsusiyyətlərindən biri də, **"SEYİD",** yəni Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmasıdır:

*Qiyamətin qopması üçün vaxtdan sadəcə bir gündən başqa vaxt qalmamış da olsa Allah **ƏHLİ-BEYTİMDƏN BİR ŞƏXSİ** (Hz. Mehdini) göndərəcəkdir. (Sünen-i Ebu Davud, 5/92)*

Bədiüzzaman da aşağıdakı sözündə, özünün Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmadığını, hz. Mehdinin isə bu mübarək nəsildən olacağını ifadə etmişdir:

***...HƏM DƏ MEHDİLİK İSNADINI HEÇ CÜR QƏBUL ETMƏDİYİMƏ BÜTÜN QARDAŞLARIM ŞAHİDLİK EDƏR.*** *Hətta Dənizlidəki əhli vükuf (məlumat sahibi kəslər), əgər Səid Mehdiliyini iddia etsə bütün şagirdləri (tələbələri) qəbul edəcək dediklərinə müqabil (qarşılıq), Səid etiraznaməsində belə demişdir:* ***"MƏN SEYİD DEYİLƏM MEHDİ İSƏ SEYİD OLACAQ" DEYƏ ONLARI RƏDD ETMİŞ...*** *(Şualar, səh. 365)*

***MƏN ÖZÜMÜ SEYİD (PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNDƏN) HESAB ETMİRƏM. İNDİKİ VAXTDA NƏSİLLƏR BİLİNMİR. HALBUKİ, AXIRZAMANIN O BÖYÜK ŞƏXSİ AL-İ BEYTDƏN (PEYĞƏMBƏRİMİZİN (S.Ə.V)-İN NƏSLİNDƏN) OLACAQDIR.*** *(Emirdağ Lahikası, səh. 247-250)*

Bədiüzzaman seyid deyil və seyid olmamasının, özünün Mehdi ola bilməyəcəyinin dəlillərindən biri olduğunu ifadə edir. Şübhəsiz ki, bir adama sual verilməsinin səbəbi, əlaqədar mövzunun doğrusunu öyrənməkdir. Bədiüzzaman Səid Nursiyə də Mehdi olub-olmadığının soruşulmasının səbəbi doğruları öyrənməkdir. Bu sual qarşısında **"xeyr, mən Mehdi deyiləm"** deyirsə və bunun onlarla dəlilini irəli sürürsə, buna inanmaq lazımdır. Çünki Bədiüzzaman çox aydın bir şəkildə bu mövzuya cavab vermiş və **"mən seyid deyiləm"** demişdir.

Həmçinin, Bədiüzzaman əgər seyid olsaydı, bunu gizlətməsi üçün heç bir səbəb yox idi. Çünki seyid olmaq, gizlədilməsi lazım olan bir xüsusiyyət deyildir. Əksinə Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmaq müsəlmanlar üçün böyük bir şərəfdir. Buna görə də, Bədiüzzaman seyid olsaydı, bunu heç bir şəkildə gizlətməz və aydın şəkildə ifadə

edərdi. Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olduğunu ifadə etməkdən böyük bir qürur duyardı. Özündən belə bir sual soruşulduğunda "Bəli seyidəm, amma Mehdi deyiləm" deyərdi. Çünki Bədiüzzaman şəxsən öz əsərlərində Peyğəmbərimiz (s.ə.v)-in hədisini xatırladaraq "**seyid olan bir adamın seyidliyini gizlətməsinin Quran əxlaqına uyğun olmadığını"** ifadə edərək, bu mövzudakı sözünün qəti olaraq doğru olduğunu ifadə etmişdir:

***Seyid olmayan seyidəm və seyid olan da seyid deyiləm deyənlər, ikisi də günahkar duhul və huruc (üsyan) haram olduqları kimi... Hədis və Quranda belə, həddindən çox nöqsan etmək məmnudur (qadağan edilmişdir).*** *(Muhakemat, səh. 52)*

Bədiüzzamanın bu sözü çox aydındır. Peyğəmbərimiz (s.ə.v)-in hədisində bildirildiyi kimi, İslam əxlaqına görə seyid olan bir adam heç bir səbəbə görə bunu gizlədə bilməz. Seyid olmayan bir adam da mən seyidəm deyə bilməz. Belə olduqda Bədiüzzaman kimi dəyərli və üstün əxlaqlı bir şəxsin seyidliyini gizlətdiyi yanaşması olduqca xoşa gəlməz bir düşüncədir. Bundan əlavə, **"hər seyid olan adam, mütləq Mehdi olmalıdır deyə bir vəziyyətdən də söhbət gedə bilməz"**. Dünyada milyonlarla seyid olan insan vardır. Bir adamın seyid olması Mehdi olmasını tələb etmədiyi üçün, hər insan bu həqiqəti rahatlıqla dilə gətirə bilər. Üstəlik, Bədiüzzaman **"mənim bu mövzudakı tək çatışmayan cəhətim seyid olmamağımdır, əgər seyid olsaydım Mehdi olardım"** da deməmişdir. Əksinə, Bədiüzzaman hz. Mehdinin bütün xüsusiyyətlərini, yerinə yetirəcəyi bənzərsiz fəaliyyətləri uzun-uzadı izah etmiş və bunların heç birinin öz yaşadığı dövrdə hələ reallaşmadığını ifadə etmişdir. Həmçinin, Bədiüzzaman risalələrdə yenə dəfələrlə **"kürd"** olduğunu ifadə edərək bu həqiqəti dəlilləndirmişdir *(Münazarat, səh.84; Tarihçe-i Hayat, səh. 228; Bediüzzaman ve Talebelerinin Mahkeme Müdafaları, səh.18).*

**Batin təfsirçilərinə görə:**

Bədiüzzamanın sözlərini batin təfsiri adı altında şərh edən kəslər, Bədiüzzamanın yuxarıda yer verilən açıq-aşkar izahlarını görməməzlikdən gəlirlər. Bədiüzzaman aydın şəkildə **"hz. Mehdi seyid olacaq, mən seyid deyiləm"** dediyi halda, bəzi şəxslər **"Bədiüzzamanın bu şərhləri doğru deyildir, özü filan gün bizi çağırmış, həm şərif, həm seyid, həm də hz. Mehdiyəm demişdir"** kimi izahlar edirlər. Buna görə də batin təfsirçiləri Bədiüzzamanın risalələrdəki sözlərini qeyri-kafi görür və onun bu sözlərini əsas almırlar.

Halbuki bu, Bədiüzzamanın əsərlərində inandığı şeylərin tam əksinə məlumatlar verdiyini və bunların doğrusunu da xüsusi bir söhbət əsnasında sadəcə iki üç adama izah etdiyini iddia etmək mənasına gələr. Bu da, Bədiüzzamanın yüzlərlə səhifə boyunca etdiyi şərhlərin **"etibarsız"** olduğunu və verdiyi səhv məlumatlarla illərdir bütün müsəlmanları aldatdığını demək mənasına gələr ki, bu da yaşadığı əsrin mücəddidi olmuş belə böyük bir İslam böyüyünə yönəldilmiş çox böyük bir böhtan və haqsızlıq olar. Yüzlərlə səhifə boyunca yazdıqlarının əksinə, Bədiüzzamanın **"-sadəcə iki üç adama-**

**bütün yazdıqlarının yalan olduğunu dediyi”** şəklində bir iddia, bu cür iddiaların sahiblərini töhmət altında saxlayar. **“Bədiüzzaman həzrətləri milyonlarla insanı aldatdı, yalan danışdı, lakin bu mövzunun doğrusunu üç-beş adama izah etdi”** şəklində bir iddia heç bir şəkildə qəbul edilə bilməz. Risalə-i Nurda Bədiüzzaman həzrətlərinin **“yüzlərlə səhifə çox əhatəli və təfərrüatlı yalan danışdığını və ümməti aldatdığını, bu yazılanların bir yalan olduğunu”** iddia etmək bir sayıqlamadır. Sevgi adına da olsa belə ağır bir təhqir edilə bilməz.

2-Bədiüzzaman, “<u>3 vəzifəni də eyni anda yerinə yetirəcək adam ancaq Axırzaman Mehdisidir”</u> deyir, təfsirçilər isə bu vəzifələrdən sadəcə birini kafi görürlər.

**<u>Bədiüzzamana görə:</u>**

Əvvəlki bölmələrdə də yer verildiyi kimi, Bədiüzzaman əsərlərində dəfələrlə hz. Mehdinin üç vəzifəsi olduğunu bildirmiş, bu üç vəzifənin eyni anda yerinə yetirilməsinin hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən biri olduğuna diqqət çəkmişdir. Bu vəzifələrin birincisi materialist, darvinist və ateist fəlsəfələrlə fikri mübarizə aparılması və bu cərəyanların fikirlə tam olaraq susdurulmasıdır. İkincisi, İslam dünyasının liderliyini öhdəsinə götürərək İslam Birliyinin təmin edilməsi, üçüncüsü isə, Quran əxlaqının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yenidən dirçəldilməsi ilə bütün yer üzünə hakim olmasıdır. Bədiüzzaman öz yaşadığı dövrdə bu üç vəzifənin də eyni anda yerinə yetirilmədiyini, bunu ancaq hz. Mehdinin reallaşdıraca biləcəyini deyir. Bədiüzzamanın bu mövzunu izah edən xeyli sözü vardır. Bunlardan biri belədir:

*HƏM BU **ÜÇ VƏZİFƏNİN EYNİ ANDA BİR ŞƏXSDƏ YAXUD CAMAATDA İNDİKİ DÖVRDƏ TAPILMASI VƏ MÜKƏMMƏL OLMASI VƏ BİR-BİRİNİ TƏKZİB ETMƏMƏSİ ÇOX UZAQ, SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR. BU ANCAQ AXIRZAMANDA PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN NƏSLİNİN NURANİ CAMAATINI TƏMSİL EDƏN HƏZRƏTİ MEHDİDƏ VƏ CAMAATINDAKI ŞƏXSİ MƏNƏVİDƏ CƏMLƏŞƏ BİLƏR.** (Kastamonu Lahikası, səh. 139)*

Bədiüzzaman hz. Mehdinin **“ÜÇ VƏZİFƏNİ EYNİ ANDA”** yerinə yetirəcəyini ifadə etdiyi bu sözüylə mövzunun əhəmiyyətini yenidən xatırladır. Özü də daxil olmaqla, əvvəlki mücəddidlərdən heç birinin bunların üçünü də eyni anda yerinə yetirmədiyini aydın şəkildə ifadə edir, buna görə də özünün Mehdi olmayacağını deyir.

Bədiüzzaman **“İNDİKİ DÖVRDƏ”** sözləriylə öz yaşadığı dövrdən bəhs edir. Və öz dövründə hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifəni tək bir şəxsin eyni anda yerinə yetirməsinin və bu üç vəzifənin bir-birinə mane olmamasının qeyri-mümkün olduğunu deyir. Bədiüzzaman bu qənaətinin nə qədər güclü olduğunu isə, **“ÇOX UZAQ”** və **“SANKİ QEYRİ-MÜMKÜN GÖRÜNÜR”** sözləriylə ifadə etmişdir. Bu da, Bədiüzzamanın yaşadığı dövrdə hz. Mehdinin hələ zühur etmədiyini göstərən başqa əhəmiyyətli bir dəlildir. Bədiüzzamanın yaşadığı dövrdə üç vəzifənin də eyni anda yerinə yetirilməsinə şərait

olmamışdır. Bədiüzzaman ancaq özündən bir əsr sonra zühur edəcək böyük Mehdinin bu vəzifələrin hamısını yerinə yetirəcəyini bildirir.

Bədiüzzaman burada istifadə etdiyi **"ANCAQ"** sözüylə başqa birinin bu vəzifələri bacarmasının Allahın diləməsiylə **"İMKANSIZ"** olduğunu ifadə etmişdir. Çünki Allah bu vəzifələri yalnız hz. Mehdinin yerinə yetirə bilməsini təqdir etmişdir. Hz. Mehdi də taleyində belə təqdir edildiyi üçün bu vəzifələri Allahın izni ilə müvəffəqiyyətlə yerinə yetirəcəkdir. İslam tarixində hələ bunu bacaran bir kimsə və ya birlik görülmədiyi kimi, Bədiüzzaman öz yaşadığı dövrdə də bu vəziyyətin reallaşmadığını vurğulayır.

Bədiüzzaman başqa bir sözündə də, Quran əxlaqını dünya üzərində hakim etmək məqsədiylə əvvəlki əsrlərdə də bəzi müsəlman şəxslərin gəldiyini, ancaq bunların heç birinin Axırzamanda hz. Mehdinin yerinə yetirəcəyi üç əhəmiyyətli vəzifəni bu şəkildə eyni anda yerinə yetirmədiklərini ifadə etmişdir. Buna görə də Axırzamanın **"BÖYÜK MEHDİ"**si ünvanına sahib olmadıqlarını ifadə etmişdir.

Bədiüzzaman bu mənada Risalə-i Nurun da hz. Mehdinin üç vəzifəsindən birincisi olan "imanı qurtarmaq" vəzifəsini yerinə yetirdiyini demişdir. Ancaq bu xidmətin kiçik ərazidə, yəni müəyyən bir ətrafla məhdudlaşdığını Böyük Mehdi ünvanına sahib olacaq hz. Mehdinin isə bu vəzifəni və digər iki vəzifəsini dünya səviyyəsində reallaşdıracağını izah etmişdir. Buna görə də, hz. Mehdi zühur etdiyi vaxt hədislərdə də ifadə edildiyi kimi, Mehdiliyini iddia etməyəcək ya da bunun təbliğatını aparmayacaqdır. Hz. Mehdinin burada sayılan və dünya səviyyəsində təsirli olacaq olan böyük işləri bu müqəddəs şəxsin zühur etdiyinin ən böyük isbatı və dəlili olacaqdır.

**<u>Batin təfsirçilərinə görə:</u>**

Bədiüzzaman, hz. Mehdinin üç vəzifəni də eyni anda yerinə yetirəcəyini, amma özünün bu vəzifələri yerinə yetirmədiyini ifadə edir. Batin təfsirçiləri isə, Bədiüzzamanın bu mövzudakı çox aydın ifadələrinə baxmayaraq, "sadəcə tək bir vəzifənin yerinə yetirilməsinin Mehdilik üçün kafi olduğunu" iddia edirlər.

Bədiüzzaman ömrünü İslam əxlaqının təbliğinə həsr etmiş, yaşadığı əsrin qütbü olmuş çox dəyərli bir İslam alimi və mütəfəkkiridir. Yaşadığı dövrdə ən çətin şərtlər altında belə iman xidmətini davam etdirmiş, bir çox insanın iman etməsinə vəsilə olmuşdur. Ancaq Bədiüzzamanın bu xidməti məhdud bir ərazidə reallaşmışdır. Hz. Mehdinin göstərəcəyi imani fəaliyyətlər isə, İslam əxlaqının "bütün dünyaya" hakim olmasını təmin edəcəkdir. Hz. Mehdi İslam dinini bütün batil inanc və xurafatlardan təmizləyəcək, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini yenidən dirçəldəcək və din əxlaqını əvvəlki halına qaytaracaqdır. Bədiüzzamanın göstərdiyi xidmət isə, belə bir nəticə verməmişdir. Bundan əlavə, Bədiüzzaman hz. Mehdinin digər vəzifələri olan İslam Birliyini meydana gətirməmiş, bütün dünyadakı müsəlmanların mənəvi lideri xüsusiyyətinə sahib olmamış, bu xüsusiyyətlə Xristian dünyasıyla ittifaq yaratmamış, Quran əxlaqının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yenidən dirçəldilərək bütün yer üzünə hakim edilməsinə vəsilə olmamışdır.

Ancaq batin təfsirçiləri bu nəticələrdən heç birinin əldə olunmadığı və Bədiüzzaman da bu həqiqəti risalələrdə aydın şəkildə dilə gətirdiyi halda, təkcə bir vəzifənin və bunun da sadəcə müəyyən baxımdan yerinə yetirilmiş olmasının Mehdilik üçün kafi olduğunu iddia edirlər. Belə bir iddia isə, "Bədiüzzamanın sözləri əhəmiyyətli deyil; risalələrə deyil, batin təfsiriylə edilən şərhlərə inanmaq lazımdır" şəklində bir düşüncəylə hərəkət edildiyini göstərir. Bu isə, Bədiüzzaman kimi dəyərli bir İslam aliminin böyük bir zəhmətlə, səmimiyyətlə qələmə almış olduğu hikmətli əsərlərinin etibarlılığını təhlükə altına salacaq çox səhv bir yanaşmadır. Bədiüzzaman yaşadığı əsrin müceddidi olmuş, müsəlmanlara işıq tutmuş çox böyük bir İslam alimidir. Şübhəsiz ki, əsərlərindəki hər bir sözü də bu istiqamətdə ən hikmətli şərhləri ehtiva edir.

3-Bədiüzzaman "<u>Mehdi bir şəxsdir və şəxsi mənəvisi vardır</u>" deyir, təfsirçilər isə "sadəcə şəxsi-mənəvidir" deyirlər.

**<u>Bədiüzzamana görə:</u>**

Bədiüzzamanın hz. İsa və hz. Mehdinin gəlişi mövzularındakı izahları çox açıq və aydındır. Bədiüzzaman bu mövzularda Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə istinad edərək bir çox dəlillə **"hz. İsanın və hz. Mehdinin bir şəxs olduqlarını"** izah etmişdir. Bədiüzzaman tarixən göndərilmiş bütün elçilər kimi hz. İsanın da, hz. Mehdinin də bir şəxsi-mənəvilərinin olacağını ifadə etmişdir. Ancaq bu şəxsi-mənəvinin başında hz. İsa və hz. Mehdi bir şəxs olaraq şəxsən özləri olacaqlar. Belə ki, bir şəxs olmadan bir şəxsi-mənəvinin varlığından söhbət belə gedə bilməz. **"Şəxsi mənəvi"** anlayışı ümumiyyətlə bir camaatı təmsil etmək üçün işlədilən bir ifadədir, ancaq bu camaat, lideri olmayan bir camaat deyildir. Hər mömin birliyinin bir rəhbəri olduğu Quranda bildirilən, Allahın əsrlərdir davam edən bir adətullahıdır.

Bundan əlavə, Quranda tarixən müxtəlif cəmiyyətlərə göndərilən elçilər, nəbilər və rəsulların həyatları, mübarizələri və təbliğləri haqqında bir çox məlumatlar verilmişdir. Yaşadıqları hadisələr, ailələri, yoldaşları, uşaqları, Allaha olan səmimi imanları və duaları ilə əlaqədar ayələrdə müxtəlif məlumatlar vardır. Bütün bu məlumatlar bizə tarixən heç bir elçi, nəbi və ya peyğəmbərin bir şəxsi mənəvi olaraq göndərilmədiyini, bütün elçilərin bir şəxs olaraq gəldiklərini göstərir. Eyni şəkildə Peyğəmbərimiz (s.ə.v)-dən sonra gələn və İslam tarixində iştirak edən heç bir müceddid və ya müctəhid də bir şəxsi mənəvi olaraq göndərilməmişdir. Quranın adətullahında bütün elçilərin, bütün müceddidlərin insanları xəbərdar edib qorxudacaq, onları Allahın razılığı, rəhməti və cənnətiylə müjdələyəcək, onlara doğrunu yanlışdan ayıracaq bir hidayət rəhbəri ola biləcək bir şəxs olaraq göndərildikləri aydın olur.

Şəxs olmadan bir şəxsi mənəvinin olması, bütün digər elçilərdə olduğu kimi hz. Mehdi üçün də mümkün ola bilməz. Hz. Mehdi də gəldiyində yenə ona yaxın olan insanlardan ibarət bir camaatı olacaq, başlarında da hz. Mehdi olacaqdır. Beləliklə,

Bədiüzzamanın sadəcə bir neçə sözünün tədqiq olunması belə bu mövzunun heç bir mübahisəyə yol verməyəcək aydınlıqda olduğunu dəqiq bir şəkildə ifadə edir:

Bədiüzzamanın hz. Mehdi üçün istifadə etdiyi "O ZAT" ya da "O ŞƏXS" kimi ifadələr, hz. Mehdinin bir "şəxsi mənəvi" olmadığını aydın şəkildə ortaya qoyur.

***1)*** *...Həm də o əşhasın (o şəxslərin) şəxsi mənəvisinə və ya təmsil etdikləri camaata dair əsər-i əzimeyi (fövqəladə əsərləri) O **ŞƏXSLƏRİN ZATLARINDA** təsəvvür edərək elə təfsir etmişlər ki, **O möcüzəvi şəxslər, yəni hz. İsa və hz. Mehdi** zühur etdikləri vaxt bütün xalq onları tanıyacaq kimi bir fikir qələmə vermişlər. (Sözler, səh. 343-344)*

Bədiüzzaman bu sözündə hz. İsa və hz. Mehdi üçün **"o möcüzəvi şəxslər"** ifadəsindən istifadə edərək, hər ikisinin də bir şəxsi mənəvi deyil, **bir şəxs** olaraq gələcəklərini aydın şəkildə ifadə etmişdir.

*2) ...Ona qarşı Al-i Beyt-i Nəbəvinin silsilə-i nuranisinə (Peyğəmbərimizin nurani soyuna) bağlanan, əhli vəlayət (vəlilərin) və əhli kəmalın (kamil iman sahiblərinin) başçısı olacaq Al-i Beytdən Məhəmməd Mehdi adında **BİR ZAT-I NURANİ** (NURLU BİR ŞƏXS), o Süfyanın şəxsi mənəvisi olan münafiqlik cərəyanını parçalayıb yox edəcəkdir... (Mektubat, səh. 56-57)*

Bədiüzzaman, burada da "bir zat-ı nurani", yəni "nurlu bir şəxs" deyərək, hz. Mehdinin bir şəxsi mənəvi deyil, bir insan olduğunu izah etmişdir.

Bədiüzzaman həmçinin "nurlu bir şəxs" ifadəsiylə bəhs etdiyi bu adamın **"kamil iman sahiblərinin başçısı olaraq onlara liderlik edəcəyini"** bildirir və bu sözləriylə, hz. Mehdinin bir şəxs olacağını yenidən təkrarlayır.

*3) **...O ZAT** o taifənin uzun tədqiqatı (o birliyin uzun sürən tədqiqatları) ilə yazdıqları əsəri özünə hazır bir proqram edəcək, onunla o birinci vəzifəni tam yerinə yetirmiş olacaqdır. **Bu vəzifənin istinad etdiyi (dayandığı) qüvvə və MƏNƏVİ ORDUSU, yalnız ixlas, sədaqət və təsanüd (həmrəylik) sifətlərinə tam sahib olan bir qisim ŞAGİRDLƏRDİR**. Nə qədər az olsalar da, mənəvi cəhətdən bir ordu qədər güclü və dəyərli sayılarlar. (Emirdağ Lahikası-1, səh. 266-267)*

Bədiüzzaman, bu sözündə də hz. Mehdi üçün "o zat" ifadəsini işlətmişdir. Bundan əlavə hz. Mehdidən və camaatından ayrı-ayrılıqda bəhs edərək, hz. Mehdi və onun şəxsi-i mənəvisinin iki fərqli anlayış olduğunu da yenidən izah etmişdir.

*4) ...O daha sonra gələcək **ACİB BİR ŞƏXSİN** (təəccübləndirən və heyrət oyandıran şəxsin) bir xidmətçisi və **ONA** zəmin hazırlayacaq əvvəldən gələn bir dümdarı*

*(qabaqcadan gələn təqibçisi) və **O BÖYÜK SƏRKƏRDƏNİN pişdar bir nəfəri** (qabaqcıl bir əsgəri) olduğumu zənn edirəm. (Barla Lahikası, səh. 162)*

Bədiüzzamanın bu sözündə istifadə etdiyi **“*TƏCCÜBLƏNDİRƏN VƏ HEYRƏT OYANDIRAN ŞƏXS*”** ifadəsi, hz. Mehdinin bir şəxsi mənəvi deyil, bir şəxs olduğunu aydın şəkildə bəyan edir.

Bədiüzzaman sözlərinin davamında isə hz. Mehdinin **“sərkərdəlik xüsusiyyətinə”** də diqqət çəkir. Bir şəxsi mənəvinin sərkərdəlik sifətinə sahib olmasından söhbət gedə bilməyəcəyi, burada hz. Mehdidən bu vəzifəni yerinə yetirə biləcək bir şəxs olaraq bəhs edildiyi çox aydındır.

Həmçinin, Bədiüzzaman Səid Nursi, hz. Mehdinin boynuna götürəcəyi bu böyük vəzifədə özünün də **“təccübləndirən və heyrət oyandıran şəxsin bir xidmətçisi”** ola biləcəyini ifadə edərkən, hz. Mehdinin bir şəxs olduğunu yenidən vurğulamışdır.

*5) ...Axırzamanın ən böyük fəsadı zamanında, əlbəttə ki, **ən böyük BİR MÜCTƏHİD** (ictihad edən böyük İslam alimi), həm ən böyük **BİR MÜCƏDDİD** (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə dərs vermək üçün göndərilən böyük İslam alimi, yeniləyən, yeniləyici), həm **HAKİM**, həm **MEHDİ**, həm **MÜRŞİD** (doğru yolu göstərən adam), həm **QÜTBÜ ƏZƏM** (Müsəlmanları özünə tabe edən böyük övliyalardan, dövrün ən böyük mürşidi) olaraq **NURANİ BİR ŞƏXSİ** göndərəcək və **O ŞƏXS** də Əhl-i Beyt-i Nəbəvidən (Peyğəmbərimizin (s.ə.v)-in nəslindən) olacaqdır. (Mektubat, səh. 411, 412) (Mektubat, səh. 441)*

Bədiüzzamanın bu sözündə istifadə etdiyi **“müctəhid, mücəddid, hakim, hz. Mehdi, mürşid, qütbü əzəm, nurani bir şəxs”** xüsusiyyətləri, mənalarından da aydın olduğu kimi, ancaq bir adama aid ola biləcək xüsusiyyətlərdir.

Həmçinin, Bədiüzzaman hz. Mehdinin **“nurani bir zat”** olduğundan bəhs edir. Əgər Bədiüzzaman hz. Mehdinin bir şəxsi mənəvi olduğunu vurğulamaq istəsəydi, burada **“nurani bir zatdan”** deyil, **“nurani bir şəxsi mənəvidən”** bəhs edərdi.

Həmçinin, burada şəxs sözündən əvvəl istifadə edilən **“bir”** sözü də bu mövzunu yenidən izah edir. **“Zat”** isə onsuz da yenə birlik və şəxs ifadə edən bir sözdür. Bədiüzzaman burada aydın şəkildə **“bir şəxs”** ifadəsini işlətmişdir, **“iki”** ya da **“bəziləri”** deməmişdir. Buna görə də Bədiüzzaman etdiyi bütün bu şərhləri ilə, hz. Mehdidən bir şəxsi mənəvi olaraq bəhs etmədiyini qəti bir şəkildə isbat edir.

***6) ...Bəlkə nuru imanın (imanın nurunun) diqqəti ilə, O ƏŞHAS-I AXIRZAMAN (Axırzaman şəxsləri) tanına bilər.*** *(Sözler, səh. 343-344)*

Bədiüzzaman hz. İsa və hz. Mehdi üçün **“Axırzaman şəxsləri”** ifadəsini işlətmişdir. Bədiüzzamanın burada istifadə etdiyi **“şəxslər”** ifadəsi, hz. İsa və hz. Mehdinin bir şəxsi mənəvi olaraq deyil, bir insan olaraq gələcəklərini aydın şəkildə ifadə edir.

Bədiüzzamanın Axırzamanda gələcək olan bu şəxslərin **"imanın nuruyla tanına biləcəklərini"** ifadə etməsi də, yenə hz. İsa və hz. Mehdinin bir şəxs olaraq gələcəklərini izah etdiyini göstərir. **"Tanımaq"** feli ancaq insanlar üçün məqbul ola biləcək bir vəziyyəti ifadə edir. Bir şəxsi mənəvinin özü olub-olmadığının tanına bilməsindən, əlbəttə ki, söhbət gedə bilməz.

*7) ...İndiki dövrdə elə fövqəladə hakim cərəyanlar (fikir axınları) vardır ki, hər şeyi öz əlinə aldığı üçün fərz edək ki,* ***HƏQİQİ GÖZLƏNİLƏN VƏ BİR ƏSR SONRA GƏLƏCƏK OLAN O ŞƏXS*** *indiki dövrdə gəlsə belə... (Kastamonu Lahikası, səh. 57)*

Bədiüzzamanın bu sözündə istifadə etdiyi **"o şəxs"** ifadəsi də yenə bu mövzunu heç bir mübahisəyə yol verməyəcək şəkildə aydınlaşdırır. Bədiüzzaman hz. Mehdidən **"həqiqi gözlənilən o şəxs"** ifadəsiylə bəhs edir. Əgər hz. Mehdinin bir şəxsi mənəvi olacağını demək istəsəydi, Bədiüzzaman burada "gözlənilən şəxsi mənəvi" deməliydi, lakin hz. Mehdiylə əlaqədar belə bir ifadə işlətməmişdir.

Bədiüzzaman bu sözündə həmçinin, hz. Mehdinin **"bir əsr sonra gələcəyini"** ifadə edir. Bir şəxsi mənəvi üçün gəlmə tarixinin verilməyəcəyi çox aydındır. **"Gəlmək"** feli də ancaq bir şəxs üçün istifadə ediləcək bir sözdür və buradan da Bədiüzzamanın hz. Mehdidən bir adam olaraq bəhs etdiyi aydın şəkildə başa düşülür.

*8)* ***...AXIRZAMANIN O BÖYÜK ŞƏXSİ, Al-i Beytdən (Peyğəmbərimizin nəslindən) olacaqdır.*** *(Şualar, səh. 442)*

Bədiüzzaman burada da **"Axırzamanın o böyük şəxsi"** sözləri ilə hz. Mehdinin Axırzamanda gələcək bir şəxs olduğunu təkrarlamışdır. Hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olacağını bildirmiş olması isə, Bədiüzzamanın hz. Mehdidən bir şəxsi mənəvi olaraq bəhs etmədiyini çox aydın bir şəkildə ifadə edir. Çünki **"bir şəxsi-mənəvinin başqa bir insanın nəslindən gəlməsindən söhbət gedə bilməz"**.

*9) ...Mən də onlara demişdim: "Mən, özümü seyid (Peyğəmbərimizin nəslindən) hesab etmirəm. İndiki dövrdə nəsillər bilinmir. Halbuki,* ***Axırzamanın o böyük şəxsi Al-i Beytdən (Peyğəmbərimiz (s.ə.v)-in nəslindən) olacaqdır****. (Emirdağ Lahikası-1, səh. 267)*

Bədiüzzaman, bu sözündə də yenə "Axırzamanın o böyük şəxsi" deyərək, hz. Mehdinin bir şəxsi mənəvi deyil, bir şəxs olduğunu aydın şəkildə bildirir.

Bədiüzzaman **"hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olacağını"** bu sözündə də yenidən ifadə edir. Yuxarıda da qeyd olunduğu kimi, Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gəlməsi üçün hz. Mehdinin ancaq bir insan olması lazımdır ki, Bədiüzzaman da bu sözüylə bu həqiqəti aydın şəkildə vurğulamışdır.

*10) ...Rəvayətlərdə Axırzamanın əlamətlərindən olan və **PEYĞƏMBƏRİMİZİN NƏSLİNDƏN OLAN HƏZRƏTİ MEHDİ** (r.ə) haqqında ayrı-ayrı xəbərlər var. (Şualar, səh. 465)*

*11) ...Səid etiraznaməsində demişdir ki: -"Mən seyid deyiləm. **MEHDİ SEYİD** (Peyğəmbər nəslindən olan kimsə) **OLACAQDIR**"-deyə onları rədd etmişdir. (Şualar, səh. 368)*

Bədiüzzaman bu iki sözündə də, hz. Mehdinin **"seyid"**, yəni **"Peyğəmbər nəslindən gələcək bir şəxs"** olduğunu yenidən təkrarlamışdır.

*12) ...Beşinci və altıncı əlamətlər islah-ı aləmin (bütün insanların pisliklərdən təmizlənib yaxşılaşdırılmasının) şəxsən **HƏZRƏTİ MEHDİNİN ZÜHURUNDAN** asılı olduğu qənaətində olan qrupdan, **BU ZATI ALİŞANIN (şanı uca olan bu şəxsin)** belə bu əmrdə müqtədir olmasına (güclü olmasına) şübhə edənlərin, bu qorxularını aradan qaldıracaq, etimadlarını təmin edəcək (təhlükəsizliyini təmin edəcək), çox güclü günəş kimi bir həqiqətdir. (Barla Lahikası, səh. 110)*

Bədiüzzamanın bu sözündəki **"bu zatı alişan"** ifadəsi də, yenə hz. Mehdinin bir şəxs olaraq zühur edəcəyini aydın şəkildə ifadə etdiyini göstərir.

*13) **...O ŞƏXS** bütün əhli-imanın (iman edənlərin) mənəvi köməyi ilə və İttihad-ı İslamın muavenetiylə (İslam Birliyinin köməkləşməsi ilə) və bütün üləma və övliyanın (alimlərin və vəlilərin) və xüsusilə də Peyğəmbərimizin nəslindən hər əsrdə güclü və qüvvətli və kəsrətli (çox sayda) olan milyonlarla fədakar seyidlərin iltihaqlarıyla (Peyğəmbər nəslindən gələn fədakar kəslərin iştiraklarıyla) **O VƏZİFƏ-İ UZMAYI (böyük vəzifəni) YERİNƏ YETİRMƏYƏ ÇALIŞAR.** (Emirdağ Lahikası-1, səh. 266-267)*

Bədiüzzaman bu sözündə də yenidən, hz. Mehdinin bir şəxs olaraq zühur edəcəyini **"o şəxs"** ifadəsiylə təkrarlamışdır.

Həmçinin, **"hz. Mehdinin yerinə yetirəcəyi böyük vəzifə"**dən də bəhs edərək, onun bir şəxsi mənəvi deyil, bir insan olaraq fəaliyyət göstərəcəyini ifadə etmişdir.

*14) ...Bu həqiqətdən aydın olur ki; **SONRA ZÜHUR EDƏCƏK O MÜBARƏK ŞƏXS...** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Səid Nursi bu izahında da, yenə hz. Mehdinin bir şəxs olaraq gələcəyini **"o mübarək şəxs"** sözləriylə təkrarlamışdır.

*15) ...Bundan xeyli vaxt əvvəl əhli vəlayətdən (vəlilərdən) eşitdim ki, **O ŞƏXS** keçmiş vəlilərin qeyblə əlaqədar olan işarələrindən istihrac etmiş (bir məna çıxartmış) və bu qənaətə gəlmişdir: "Şərq tərəfdən bir nur zühur edəcək, bidətlər zülümatını (dinə*

*sonradan daxil olmuş olan xurafatların əmələ gətirdiyi zülməti) yox edəcəkdir". Mən, belə bir nurun zühurunu çox gözlədim və gözləyirəm. Lakin çiçəklər yazda açar. Elə qüdsi çiçəklərə zəmin hazırlamaq lazımdır. Və başa düşdük ki, bu xidmətimizlə* ***O NURANİ ŞƏXSLƏRƏ*** *zəmin izhar edirik (hazırlayırıq). (Sikke-i Tasdik-i Gaybi, səh. 189, Mektubat, səh. 34)*

**- ...O şəxs...**

**- ...O nurani şəxslərə...**

Bədiüzzaman bu sözündə Axırzamanda gələcək bu müqəddəs şəxslər üçün iki dəfə **"şəxs"** sözündən istifadə etmişdir. Özünün bu **"nurani şəxslərə zəmin hazırladığını"** deyərək, hz. İsa və hz. Mehdinin bir şəxsi mənəvi olmadıqlarını, bir şəxs olduqlarını aydın şəkildə ifadə etmişdir.

***16) ...ÜMMƏTİN GÖZLƏDİYİ AXIRZAMANDA ZÜHUR EDƏCƏK ŞƏXSİN*** *üç vəzifəsindən ən əhəmiyyətlisi, ən böyüyü və ən dəyərlisi olan iman-ı təhqiqiyi nəşr (həqiqi imanı yaymaq) və əhli imanı dəlalətdən (iman edənləri azmaqdan) xilas etməkdir... (Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman burada da, hz. Mehdinin İslam aləminin gözlədiyi **"Axırzamanda gələcək bir şəxs"** olduğunu ifadə edərək onun bir şəxsi mənəvi olmadığını yenidən təkrarlamışdır.

*17) ...Əhli imanı dəlalətdən mühafizə etmək (İman edənlərin doğru yoldan azmalarına mane olmaq) və bu vəzifəni həm dünyanı, həm də hər şeyi tərk etməklə, çox vaxt tədqiqatla (araşdırmaqla) məşğul olmağı tələb etdiyindən,* ***HƏZRƏTİ MEHDİNİN O VƏZİFƏSİNİ ŞƏXSƏN ÖZÜNÜN*** *yerinə yetirməsinə vaxt və vəziyyət imkan verməz... (Emirdağ Lahikası-1, səh. 266-267)*

Bədiüzzamanın bu sözündə istifadə etdiyi **"özü"** sözü də yenə şəxs ifadə edən və hz. Mehdinin bir şəxsi mənəvi olmadığını ifadə edən başqa bir dəlilidir.

Səid Nursi bu sözündə həmçinin, hz. Mehdinin bir şəxs olduğunu göstərən başqa ifadələr də işlətmişdir:

1 - Hz. Mehdinin yerinə yetirəcəyi bir vəzifə vardır. Demək ki, hz. Mehdi bir şəxsdir.

2 - Hz. Mehdi digər vəzifələriylə məşğul olacaq və bu vəzifəni şəxsən özünün yerinə yetirə bilməsi üçün vaxtı olmayacaqdır. **"Məşğuliyyət və vaxt məhdudluğu"** ancaq bir insan üçün məqbul olan vəziyyətlərdir. Bir şəxsi mənəvinin məşğul olmasından ya da vaxtının olmamasından söhbət gedə bilməz.

*18) ..."Dünyanın gələcəyində* ***MİN DÖRD YÜZ İL SONRA GƏLƏCƏK BİR HƏQİQƏTİN*** *yaşadıqları əsrə yaxın olduğunu zənn etmişlər" (Sözler, səh. 318)*

Bədiüzzaman bu sözləri ilə, İslam tarixində bir çox adamın hz. Mehdinin öz dövrlərində gələcəyini düşünərək yanıldıqlarını və bu şəxsin Peyğəmbərimiz (s.ə.v)-dən 1400 il sonra gələcəyi xatırlatmışdır. Yuxarıdakı bölmələrdə də ifadə edildiyi kimi, **"gəlmək"** feli ancaq bir insan üçün məqbul olan bir vəziyyətdir. Bədiüzzaman burada, hz. Mehdinin bir şəxsi mənəvi olduğunu vurğulamaq istəsəydi, çox fərqli ifadədən istifadə edərdi. Halbuki, tarixini də verərək, nə vaxt gələcəyini bildirməsi, hz. Mehdidən bir şəxs olaraq bəhs etdiyini ifadə edir.

Bədiüzzaman hz. Mehdi və onun camaatının şəxsi mənəvisindən iki fərqli anlayış olaraq bəhs edir.

*19) ...o vəzifələri **ONUN cəmiyyətinin və seyidlər camaatının** yerinə yetirəcəyini rəhmət-i İlahiyyədən gözləyirik. (Emirdağ Lahikası-1, səh. 265)*

Bədiüzzaman bu şərhində hz. Mehdi üçün **"onun"**, hz. Mehdinin camaatı üçünsə **"onun cəmiyyəti"** ifadəsini işlətmişdir. Şəxs bildirən **"onun"** sözü hz. Mehdinin bir şəxs olduğunu göstərir. Cəmiyyəti isə, hz. Mehdinin şəxs-i mənəvisini təmsil edir və hz. Mehdinin şəxsindən fərqli bir anlayış olaraq bəhs edilmişdir. Ancaq hz. Mehdinin bir cəmiyyətinin olması üçün özünün də bir şəxs olaraq bu cəmiyyətin başında olması lazımdır.

*20) **...HƏZRƏTİ MEHDİNİN NURANİ CAMAATI*** Süfyan komitəsinin təxribatçı rejim-i bidakaranəsini (dində olmayanı dinə daxil edən kimi) bərpa edəcək, Sünnət-i Səniyəni (Peyğəmbərimiz (s.ə.v)-in sözlərinə və hərəkətlərinə dair ən yüksək və dəyərli halları, rəftarları, hərəkət qanunlarını) ihya edəcək (canlandıracaq), yəni İslam aləmində Risalət-i Əhmədiyyəni (Peyğəmbərimiz (s.ə.v)-in peyğəmbərliyini) inkar niyyətiylə Şəriət-i Əhmədiyyəni (Peyğəmbərimiz (s.ə.v)-in gətirdiyi Quran hökmlərini) yox etməyə çalışan Süfyan komitəsi HƏZRƏTİ MEHDİ CƏMİYYƏTİNİN möcüzəvi mənəvi qılıncı ilə öldürüləcək və yox ediləcəkdir. *(Mektubat, səh. 473)*

**- ...Onun cəmiyyəti...**

**- ...Hz. Mehdinin nurani camaatı...**

**- ...Hz. Mehdi cəmiyyətinin...**

Bədiüzzamanın bu sözündə keçən "Süfyan komitəsi" darvinist, materialist və ateist cərəyanları təmsil edir. Bədiüzzaman Axırzamanda zühur edəcək olan hz. Mehdinin bu cərəyanların haqq dini pozmağa istiqamətli fəaliyyətlərini dayandıracağını, dini həqiqi halına qaytaracağını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsi ilə hərəkət edəcəyini bildirmişdir.

Bədiüzzaman bu və yuxarıdakı sözündə hz. Mehdinin bir cəmiyyəti olacağını bildirir. Bu cəmiyyət, hz. Mehdinin şəxsən başında olmasından əmələ gələn şəxsi

mənəvisidir. Əvvəlki bölmələrdə də izah edildiyi kimi, **"hz. Mehdinin cəmiyyəti"**, hz. Mehdinin də başında olacağı, onun təbliğinə riayət edib ona tabe olan insanlardan ibarət olan bir birliyi ifadə edir. Ancaq bu birliyin bu mövzudakı ən əhəmiyyətli xüsusiyyəti bu şəxsi mənəvini meydana gətirən şəxsin, yəni hz. Mehdinin varlığıdır. Buna görə də, Bədiüzzamanın bu sözündə istifadə etdiyi **"hz. Mehdinin nurani cəmiyyəti"** anlayışı da, yenə hz. Mehdinin bir şəxs olaraq gələcəyini göstərir.

*21) ...Ta Axırzamanda həyatın geniş dairəsində əsl sahibləri, yəni **MEHDİ VƏ TƏLƏBƏLƏRİ,** Cənabı Haqqın izni ilə gələr, o dairəni genişləndirər və o toxumlar sünbüllənər. (Sikke-i Tasdik-i Gaybî, səh. 172) (Kastamonu Lahikası, səh. 72)*

Bədiüzzaman bu sözündə hz. Mehdi və şəxsi mənəvinin fərqli anlayışlar olduğunu aydın şəkildə ifadə edir. Hz. Mehdinin şəxsi və tələbələri adlı iki fərqli anlayışdan bəhs edir. Buradakı **"və"** sözü bu mövzuya aydınlıq gətirir. Bu ikisi bir-birindən fərqlidir və ikisinin bir yerə gəlməsindən hz. Mehdinin şəxsi mənəvisi əmələ gəlir.

*22) ...Həm bu üç vəzifənin eyni anda bir şəxsdə, yaxud camaatda indiki dövrdə tapılması və mükəmməl olması və bir-birini təkzib etməməsi çox uzaq, sanki qeyri-mümkün görünür. Axırzamanda Al-i Beyti Nəbəvinin (s.ə.v) (Peyğəmbərimizin nəslinin) nurani camaatını təmsil edən **HƏZRƏTİ MEHDİDƏ VƏ CAMAATINDAKI ŞƏXSİ MƏNƏVİDƏ** ancaq ictima edə bilər (cəmləşə bilər). (Kastamonu Lahikası, səh. 139) (Sikke-i Tasdik-i Gaybi, səh. 186)*

Bədiüzzamanın bu sözündə də, hz. Mehdi və camaatının şəxsi mənəvisi, yenə **"və"** ifadəsiylə bir-birindən ayrılmışdır. Bu izahdan hz. Mehdi və şəxsi-mənəvinin iki fərqli anlayışı təmsil etdiyi aydın olur. **"Hz. Mehdinin camaatındakı bir şəxsi mənəvi"**dən də bəhs edilir, "hz. Mehdi" isə bu anlayışdan kənar saxlanılaraq, ayrılıqda yada salınır. Demək ki, hz. Mehdinin bir şəxsi mənəvisi olacaq, lakin özü də ayrılıqda bu şəxsi-mənəvinin başçısı olacaqdır.

*23) **...MEHDİ-İ AL-İ RƏSULUN TƏMSİL ETDİYİ QÜDSİ CAMAATININ ŞƏXSİ MƏNƏVİSİNİN** üç vəzifəsi vardır. (Emirdağ Lahikası-1, səh. 265)*

Bədiüzzamanın bu sözündə isə, hz. Mehdinin camaatının şəxsi-i mənəvisinin yerinə yetirəcəyi üç böyük vəzifədən bəhs edilir. Bu camaatın şəxs-i mənəvisini təmsil edən, başçıları olan adam isə hz. Mehdidir. Amma bu vəzifəni bu qüdsi camaatın şəxsi-mənəvisi yerinə yetirir. Bədiüzzamanın bu şərhi də, yenə hz. Mehdinin **"şəxsi-mənəvisi"nin və "şəxsinin" iki fərqli anlayış olaraq qeyd olundğunu** göstərir.

**Batin təfsirçilərinə görə:**

Yuxarıda sadəcə bir qisminə yer verilmiş sözlərində, Bədiüzzamanın hz. Mehdidən bir şəxs olaraq bəhs etdiyi çox aydın olaraq görünür. Bədiüzzaman hz. Mehdi üçün aydın şəkildə **“zat”, “şəxs”** kimi ifadələr istifadə etmişdir. Lakin niyəsə batin təfsirçiləri Bədiüzzamanın bu dəqiq şərhlərini dəlil olaraq qəbul etmir, hz. Mehdi sadəcə bir şəxsi mənəvidir deyirlər. Bu düşüncələrə isə heç bir dəlil gətirmir, sadəcə Bədiüzzamanın batini təfsir məntiqiylə səhv formalarda şərh etdikləri sözlərini təqdim edirlər. Hətta bəhsi keçən kəslərin bu mövzulardan söhbət açıldığı vaxt istifadə etdikləri qəlibləşmiş bəzi cavabları vardır. Məsələn, “Axırzamanda hz. Mehdi adında bir şəxs zühur edəcəkmi?”-deyə bir sual soruşulduğu vaxt belə bir cavab verilər: “Xeyr, hz. Mehdi gəlməyəcək, şəxsi mənəvisi gələcək”, ya da “hz. Mehdi onsuz da gəlmişdir. Çünki Mehdilik bir şəxsi mənəvidir, zühur edəcək Mehdi də budur. Hal-hazırda da bu şəxsi mənəvi mövcuddur”. Eyni şəkildə hz. İsa üçün də “hz. İsa yer üzünə ikinci dəfə gələcəkmi?”-deyə bir sual soruşulduğu vaxt “Xeyr, hz. İsa gəlməyəcək, hz. İsanın özü yer üzünə enməyəcək, şəxsi mənəvisi yer üzündə olacaqdır” deyilir. Ya da “hz. İsanın da, hz. Mehdinin də şəxsi mənəvisi onsuz da gəlmişdir” kimi şərhlər edilər. Bəziləri də, “Bədiüzzaman əsərlərində hz. İsa və hz. Mehdinin gələcəyi mövzusunda dəqiq şərhlər verməmişdir” kimi sözlərlə bu düşüncələrini Bədiüzzamanın sözləriylə sübut etməyə cəhd edirlər.

Halbuki, bu dünyagörüşü olduqca yanlış və xətalıdır. Çünki Bədiüzzaman hz. İsa və hz. Mehdi ilə əlaqədar sözlərində bu mövzunu çox dəqiq ifadələrlə izah etmiş, Axırzamanda gözlənilən bu kəslərin bir şəxsi mənəvi olmadığını, bir şəxs olaraq zühur edəcəklərini aydın bir şəkildə ifadə etmişdir.

Bədiüzzamanın bu sözlərinə baxmayaraq, inadla hz. Mehdinin bir şəxsi mənəvi olacağının ifadə edilməsi isə, əlbəttə ki, bəhsi keçən kəslərin bəzi narahatlıqlarla hərəkət etmələrindən qaynaqlanır. Bunlar arasında başqa bir şəxsin Bədiüzzamandan daha üstün bir mövqe sahibi olması, risalələrdən daha təsirli əsərlər yazılması, saxta Mehdilərin çıxma ehtimalı və ya Mehdinin zühur etməməsi vəziyyətində xəyalların puç olması qorxusu, mövcud rejimin pozulması, mənfəət ya da etibar itkisinə məruz qalmaq kimi narahatlıqlar sayıla bilər. Hz. Mehdinin bir şəxsi mənəvi olacağı fikri yayıldığı təqdirdə isə, Mehdinin gözlənilməsi də aradan qalxacaqdır. Mövcud rejim pozulmayacaq, gələcəkdə Bədiüzzamanın sözlərinin səhv çıxması qorxusu olmayacaq, hz. Mehdinin zühur etməməsi ehtimalında da ruh düşkünlüyü yaşanmayacaqdır. Halbuki, təməldə Bədiüzzamanın da ifadə etdiyi kimi, tamamilə iman zəifliyindən və hz. Mehdi inancının güclü olmamasından qaynaqlanan bu şübhələr tamamilə yersizdir. Hədislərdə və Bədiüzzamanın sözlərində, hz. Mehdinin vəsilə olacağı bildirilən hadisələrə Allah Quran ayələrində də işarə etmişdir. İslam əxlaqını bütün yer üzünə hakim edəcəyini, bundan 1400 il əvvəl Allah Quranda möminlərə müjdələmişdir. Allahın vədi haqdır. Taledə Allah bunu kimin vəsiləsiylə reallaşdırsa, bu adam hz. Mehdi olacaqdır.

Allah İslam əxlaqını bütün dünyaya hakim edəcəyini, iman edən qullarını güc və iqtidar sahibi edəcəyini vəd etmişdir. Allahın izni ilə bu vəd reallaşacaqdır. Allahın adətullahında Quran əxlaqının hakimiyyəti vardır. Və yenə bu adətullaha görə bu

hakimiyyətdə mömin birliyinin başında bir lider olması lazımdır. Bu şəxsə Mehdi deyilmişdir. Ancaq əsl əhəmiyyətli olan bu şəxsə nə ad verildiyi deyildir. Bu adam müxtəlif formalarda adlandırıla bilər. Ancaq qəti olan Allahın bu vədinin reallaşacağı və bu hadisəyə vəsilə olacaq və möminlərə liderlik edəcək bir şəxsin mövcud olacağıdır.

4- Bədiüzzaman "hz. İsa gələcəkdir" deyir, təfsirçilərin bir qismi "hz. İsa gəldi, öldü, hətta dəfn edildi" deyir, digər bir qismi isə "hz. İsa şəxsi mənəvidir" deyir.

**Bədiüzzamana görə:**

Bədiüzzaman əsərlərində hz. İsanın bir şəxs olaraq ikinci dəfə yer üzünə gələcəyini bir çox dəlillərlə izah etmişdir. Bədiüzzamanın bu şərhlərinə görə, hz. İsa yer üzünə yenidən gəldiyi vaxt, əvvəlki gəlişində olduğu kimi yenə ona yaxın kəslərdən ibarət olan bir camaatı olacaq və başlarında da hz. İsa olacaqdır. Bu camaat hz. İsanın şəxsi mənəvisini əmələ gətirəcək, ancaq tarixən göndərilmiş olan bütün elçilərdə olduğu kimi, başlarında da bir lider olaraq hz. İsa şəxsən özü olacaqdır.

Bədiüzzamanın bu mövzunu izah edən sözlərindən birində hz. İsanın bir şəxsi mənəvi deyil, bir şəxs olduğu belə ifadə edilir:

***...Aləm-i səmavatda (göylər aləmində) CİSM-İ BƏŞƏRİSİYLƏ (insan surətində) olan ŞƏXSİ İSA ƏLEYHİSSALAM, o din-i haqq cərəyanının (haqq dinin) başına keçəcəyini...*** *(Mektubat, səh. 60)*

Bədiüzzaman hz. İsanın ikinci dəfə yer üzünə insan surətində gələcəyini və haqq dinin başına şəxsən keçəcəyini ifadə edir. Bundan əlavə, Bədiüzzaman hz. İsanın Dəccal ilə olan mübarizəsini izah etdiyi sözlərində də bir şəxsi mənəvi ilə digər bir şəxsi mənəvi arasında yaşanacaq bir mövzudan deyil, hz. İsanın bilavasitə şəxsinin Dəccalın şəxsinə qarşı edəcəyi bir mübarizədən bəhs edir:

*...Əlcavab: Hədis-i səhihdə (doğruluğu qəti olan hədisdə) rəvayət edilən:* ***"Həzrəti İsa Əleyhissalamın gələcəyini və Şəriəti İslamiyyə ilə əməl edəcəyini, Dəccalı yox edəcəyini"*** *imanı zəif olanlar istibad edirlər (uzaq görürlər, ehtimal vermirlər, olmayacaq zənn edirlər). Onun həqiqəti izah edilsə, heç istibad (uzaq görünən) tərəfi qalmaz. (Mektubat, səh. 58-59)*

Bədiüzzaman başqa bir sözündə isə Dəccalın təsirinin ancaq möcüzə sahibi bir peyğəmbər tərəfindən aradan qaldırıla biləcəyini ifadə edərək, hz. İsanın bir şəxsi mənəvi deyil, "möcüzələr göstərəcək xüsusiyyətlərə sahib bir şəxs olacağını" yenidən aydın şəkildə ifadə etmişdir:

***...Ancaq möcüzə və MÖCÜZƏLƏR SAHİBİ VƏ BÜTÜN İNSANLARIN QƏBUL ETDİYİ BİR ŞƏXS ola bilər ki: O ŞƏXS, ən çox əlaqədar və bir çox insanların peyğəmbəri olan HƏZRƏTİ İSA ƏLEYHİSSALAMDIR...*** *(Şualar, səh. 463)*

**Batin təfsirçilərinə görə:**

Bədiüzzaman hz. İsanın ikinci dəfə yer üzünə gəlişini bir çox sözündə aydın şəkildə müjdələmişdir. Ancaq bəzi dairələr müxtəlif səbəblərdən üzündən hz. İsanın bir şəxs olaraq gələcəyini qəbul etmək istəmir və bu məqsədlə Bədiüzzamanın sözlərini təfsir adı altında səhv şəkillərdə şərh etməyə cəhd edirlər. Təfsirçilərin bir qismi, "Hz. İsa gəldi, öldü, hətta basdırıldı", bir qismi də "Hz. İsa şəxsi mənəvidir" deyirlər.

Məlum olduğu kimi, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdinin və hz. İsanın eyni dövrdə ortaya çıxacaqları və bir yerə gələcəkləri xəbər verilir. Hz. İsa və hz. Mehdi Dəccalın qurduğu inkara əsaslanan fikir sisteminə qarşı birlikdə mübarizə aparacaq, yeddi il birlikdə hökm edəcək və İslam əxlaqını bütün dünyaya birlikdə hakim edəcəkdirlər. Hz. Mehdinin keçmişdə zühur etdiyini iddia edən ya da Bədiüzzamanın hz. Mehdi olduğunu irəli sürən bəzi kəslər isə, bu mövzuya aydınlıq gətirməkdə bəzi çətinliklərlə üzləşirlər. Çünki hz. İsa hələ də ortaya çıxmamışdır. Hədislərdə və Bədiüzzamanın əsərlərində ifadə edildiyi kimi birlikdə namaz qılmamışlar. Ancaq bu kəslər hz. Mehdinin keçmişdə zühur etmiş və vəfat etmiş olduğunu iddia etdikləri üçün, belə bir tarixi görüşün reallaşmasından heç cür söhbət gedə bilməz. Buna görə də heç bir dəlilə əsaslanmayan bu iddianın dəstəklənməsi və təfsir edilməsi üçün hz. İsa ilə əlaqədar da **“batini təfsir”** adı altında həqiqətdən kənar bəzi iddialar ortaya atılır. Hz. İsanın sadəcə bir ruh olaraq gələcəyi, xristianlığı təmsil edən bir şəxsi mənəvi olacağı ya da Bədiüzzamanın yaşadığı vaxt gəldiyi və vəfat edib dəfn olunduğu kimi əsassız fikirlər irəli sürülür. Halbuki, Bədiüzzaman əsərlərində çox aydın bir dillə və dəfələrlə hz. İsanın insan surətində **“bir şəxs”** olaraq yer üzünə gələcəyini ifadə etmişdir. Hz. İsanın **“xristian ruhaniləriylə ittifaq yaradacağını, Dəccal ilə mübarizə aparıb onu fikirlə təsirsiz hala gətirəcəyini”** ifadə etmişdir.

Bədiüzzamanın hz. İsanın gəlişi ilə əlaqədar çox aydın sözlərinə baxmayaraq irəli sürülən bu kimi iddialar, böyük bir İslam aliminin yazmış olduğu kitabların hamısını şübhəli hala gətirəcək çox səhv tətbiqlərdir. Bu kimi səhv cəhdlərin qabağının alınması isə, -özünün də dəfələrlə vurğuladığı kimi- Bədiüzzamanın həqiqi fikirlərini öyrənə bilmək üçün sadəcə risalələrə əsaslanmağın əhəmiyyətini bəyan etməklə mümkün olacaqdır.

5-Bədiüzzaman “<u>İslam əxlaqı dünyaya hakim olacaq</u>” deyir, təfsirçilər isə “bu onsuz da reallaşmışdır” deyir. Bir qismi də, “bunu hz. Mehdinin şəxsi-mənəvisi yerinə yetirəcək” deyir. “Bəs bu olduğu vaxt müsəlman aləminin başına bir adam keçmiş ola bilərmi?” deyildiyi vaxt, “xeyr, eyni anda çox adam lider ola bilər, şəxsi mənəvi də lider ola bilər, liderə ehtiyac yoxdur” kimi hz. Mehdini rədd etmək üçün müxtəlif etiraz, təfsir və bəhanələr gətirirlər.

**Bədiüzzamana görə:**

İslam əxlaqının yer üzünə hakim olacağı, Qurani Kərimdə bildirilmiş olan haqq bir vəddir. Quranda İslam əxlaqının hakimiyyətiylə əlaqədar bildirilmiş olan ayələr olduqca aydındır. Bunlardan bəziləri belədir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi ONLARI DA YER ÜZÜNÜN VARİSLƏRİ EDƏCƏK, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir… (Nur surəsi, 55)**

**Onlar Allahın nurunu öz ağızlarıyla söndürmək istəyirlər. Halbuki kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu tamamlayacaqdır. Müşriklərin xoşuna gəlməsə də, İSLAM DİNİNİ BÜTÜN DİNLƏRDƏN ÜSTÜN ETMƏK MƏQSƏDİLƏ Öz Elçisini hidayət və haqq dinlə göndərən Odur. (Saff surəsi, 8-9)**

**Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar. Müşriklərin xoşuna gəlməsə də, İSLAMI BÜTÜN DİNLƏRDƏN ÜSTÜN ETMƏK ÜÇÜN ÖZ ELÇİSİNİ DOĞRU YOL GÖSTƏRİCİSİ VƏ HAQQ DİN İLƏ GÖNDƏRƏN ODUR. (Tövbə surəsi, 32-33)**

Quranda bildirildiyi kimi, İslam əxlaqının hakimiyyəti Allahın bir vədidir. Rəbbimiz bu vədini mütləq yerinə yetirəcəkdir. Həmçinin, Quranda, mömin birliklərin başlarında mütləq bir liderin olduğu bildirilir. Hər peyğəmbər, nəbi və ya elçi, göndərildikləri cəmiyyətə liderlik etmişdir. Tarixən çəkilmiş bütün misallarda göründüyü kimi, hakimiyyət dövründə də müsəlmanların başlarında onlara yol göstərəcək bir liderləri mütləq olacaqdır. Peyğəmbərimiz (s.ə.v)-in mütəvatir hədislərində, bu dövrdə İslam əxlaqının hakimiyyətində möminlərin liderinin **"hz. Mehdi"** olacağı xəbər verilmişdir.

Bədiüzzaman da Risalə-i Nur Külliyyatında Allahın Quran ayələrində bildirdiyi bu müjdəyə geniş yer vermiş, İslam əxlaqının hz. Mehdi vəsiləsiylə hakim olacağını ifadə etmişdir. Bədiüzzamanın İslam əxlaqının bütün dünyaya hakim olacağını ifadə etdiyi sözlərindən bəziləri belədir:

***1)*** *İkinci vəzifəsi:* ***XİLAFƏT-İ MƏHƏMMƏDİYYƏ (S.Ə.V) ÜNVANI İLƏ (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi ünvanı ilə) ŞƏAİR-İ İSLAMİYYƏNİ (İslam əxlaqının əsaslarını) İHYA ETMƏKDİR (yenidən canlandırmaqdır), ALƏM-İ İSLAMIN VƏHDƏTİNİ (İslam aləminin birliyini) NÖQTƏ-İ İSTİNAD EDİB (dayaq nöqtəsi edib) bəşəriyyəti (insanlığı) maddi və mənəvi təhlükələrdən və qadab-ı İlahidən (Allahın əzabından) xilas etməkdir...*** *(Emirdağ Lahikası, səh. 259)*

Bədiüzzamanın şərhlərinə görə, hz. Mehdi İslam dünyasının lideri xüsusiyyəti ilə hal-hazırda müxtəlif qruplar halında dağınıq halda olan müsəlmanları birləşdirəcək, İslam əxlaqını və fəzilətini, Peyğəmbərimiz (s.ə.v)-in həqiqi sünnələrini dirçəldəcəkdir. İslam aləminin birliyini yaradacaq, bu vəsiləylə insanları maddi və mənəvi təhlükələrdən xilas edəcək və insanların Allahın qəzəbindən çəkinmələrinə vəsilə olacaqdır. Bədiüzzamanın burada istifadə etdiyi **"İHYA ETMƏK"** sözü olduqca əhəmiyyətlidir. Bu söz **"yenidən həyata qovuşdurmaq"** mənasındadır. Hz. Mehdi bu vəzifəni yerinə yetirərək İslam əxlaqının dünya səviyyəsində yaşanmasına vəsilə olacaqdır.

*2)* ***O ŞƏXSİN İKİNCİ VƏZİFƏSİ, ŞƏRİƏTİ (Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) İCRA VƏ TƏTBİQ ETMƏKDİR (yerinə yetirməkdir)****. (Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman bu sözündə də, hz. Mehdinin ikinci vəzifəsinin Quran əxlaqının əsaslarının tamamilə yaşanmasına vəsilə olmaq olduğunu izah etmişdir. **"İCRA VƏ TƏTBİQ ETMƏK", "tətbiq etmək, qüvvəyə mindirmək, yerinə yetirmək"** deməkdir. Bədiüzzaman da bu ifadələriylə, hz. Mehdinin Quran əxlaqının tələblərini və əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini bütün insanlar arasında tətbiq edəcəyini və həyata keçirəcəyini bildirir.

*3)* ***...QADİR-İ ZÜLCƏLAL (hər şeyə müqtədir olan Uca Allah) HZ. MEHDİ VƏSİLƏSİYLƏ DƏ, İSLAM ALƏMİNİN ZÜLÜMATINI(zülm dövrünü, qaranlığını) YOX EDƏ BİLƏR. BUNU VƏD ETMİŞDİR, ƏLBƏTTƏ Kİ, VƏDİNİ YERİNƏ YETİRƏCƏKDİR.*** *(Mektubat, səh. 411-412)*

Bədiüzzaman Cəlal və Qüdrət sahibi olan Rəbbimizin Axırzaman əlamətlərinin şiddətləndiyi dövrdə Allahın insanların qurtuluşuna vəsilə olması üçün Peyğəmbərimiz (s.ə.v)-in nəslindən nurani bir şəxs olan hz. Mehdini göndərəcəyini və onun vəsiləsiylə dinsizlik və zülm dövrünü aradan qaldıracağını ifadə etmişdir. Hz. Mehdi Allahın izni ilə İslam dünyasının üz-üzə gəldiyi zülm və çətinliklərə son qoymaqla vəzifələndirilmiş adam olacaq və fəaliyyətləri ilə Quran əxlaqını dünya səviyyəsində hakim edəcəkdir. Bədiüzzaman Allahın bu vədinin haqq olduğunu və vədini mütləq reallaşdıracağını ifadə etmişdir.

*4)* ***...Axırzamanda şəriət-i Məhəmmədiyyəni (Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini), həqiqət-i Furqaniyyəni (Quranın əsasını və mahiyyətini), Sünnəti Əhmədiyyəni (Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) ihya ilə (yenidən canlandırmaqla) elan ilə (hər kəsə eşitdirməklə) icra ilə (tətbiq etməklə) <u>baş sərkərdələri olan Böyük Mehdinin kəmal-i ədalətini (yüksək ədalətini), haqqaniyyətini (haqq və ədalətə riayət etdiyini, doğruluğunu) dünyaya göstərmələri</u> çox məqbul olmaqla yanaşı çox lazım, zəruri və həyat-ı ictimaiyyəni insaniyədəki (insanların cəmiyyət həyatındakı) düsturların müktəzasıdır (qaydaların gərəyidir).*** *(Şualar, səh. 456)*

Bədiüzzaman bu sözündə, hz. Mehdinin baş sərkərdəlik vəzifəsini boynuna götürərək və Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn Əhli-beytin köməyiylə bütün dünyaya haqq və ədalət gətirəcəyini bildirir. Quran həqiqətlərinin və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin lazım olduğu kimi yaşandığı dövr Allahın izni ilə hz. Mehdiylə birlikdə başlayacaq, İslam əxlaqı hz. Mehdi vəsiləsiylə bütün dünyaya hakim olacaqdır.

Bədiüzzamanın burada istifadə etdiyi **"İHYA"** sözünün mənası **"YENİDƏN CANLANDIRMAQ"**dır. Bədiüzzamanın da ifadə etdiyi kimi, hz. Mehdi Axırzamanda Qurandan uzaqlaşmış olan insanların yenidən Quran əxlaqına görə yaşamalarına vəsilə olacaqdır.

**"ELAN"** sözünün mənası isə, **"HƏR KƏSƏ ÇATDIRMAQ"**dır. Bədiüzzamanın şərhlərinə görə, hz. Mehdi, Quran həqiqətlərini və Quran əxlaqını hər kəsin görə biləcəyi, çata biləcəyi şəkildə eşitdirəcəkdir. Kütləvi informasiya vasitələrini və texnologiyanı çox yaxşı istifadə edən hz. Mehdi İslam həqiqətlərini çox müxtəlif və hikmətli üsullardan istifadə edərək bütün dünyaya aydın şəkildə göstərəcək və elan edəcəkdir.

**"İCRA"** sözünün mənası da, **"TƏTBİQ ETMƏK"**dir. Bədiüzzaman bu sözləriylə də hz. Mehdinin Quran əxlaqını bütün dünyaya hakim edəcəyini və bütün cəmiyyətlərdə yaşanan hala gətirəcəyini ifadə edir.

Bədiüzzamanın burada hz. Mehdinin fəaliyyəti haqqında üstündə durduğu geniş əhatəli xidmətlər, bütün dünyanın gözləri qabağında reallaşacaq hadisələrdir. Bədiüzzaman bunların heç birinin özü həyatda olarkən reallaşmamış olduğuna diqqət çəkir, lakin bu əlamətlərin reallaşmasına vəsilə olacaq adamın hz. Mehdi ola biləcəyini bildirir.

***5) Birinci vəzifə maddi güclə deyil, bəlkə qüvvətli etiqad (güclü və səmimi bir iman), ixlas (yalnız Allahın məmnuniyyətini güdmək) və sədaqətlə (qəlbdən bağlılıqla) reallaşa biləcəyi halda, BU İKİNCİ VƏZİFƏ ÜÇÜN ÇOX BÖYÜK MADDİ GÜC VƏ HAKİMİYYƏT LAZIMDIR Kİ, O İKİNCİ VƏZİFƏ yerinə yetirilə bilsin.*** *(Sikke-i Tasdik-i Gaybi, əhs. 9)*

Bədiüzzaman, hz. Mehdinin ikinci vəzifəsini ancaq **"BÖYÜK BİR MADDİ GÜC VƏ HAKİMİYYƏTLƏ"** reallaşdıra biləcəyini vurğulamışdır. Bu gücə sahib olacaq yeganə adam hz. Mehdidir. Bədiüzzaman hz. Mehdinin bu vəzifəsini dünya səviyyəsində reallaşdıracağını xatırladaraq, onun sahib olacağı maddi güc və hakimiyyətin də çox böyük miqyasda olacağına diqqət çəkmişdir. Peyğəmbərimiz (s.ə.v)-in dövründən etibarən belə bir güc və hakimiyyət təmin edilə bilməmişdir. Bədiüzzamanın da diqqət çəkdiyi kimi buradakı "hakimiyyət" anlayışı, hz. Mehdinin bütün müsəlmanların mənəvi lideri olaraq İslam əxlaqını bütün dünyaya hakim edəcəyini ifadə edir.

*6) Belə bir camaat-ı azimə (Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələn böyük seyidlər camaatı) içindəki müqəddəs gücü təhyic edəcək (hərəkətə gətirəcək) və*

*oyandıracaq hadisat-ı azimə (böyük hadisələr) vücuda gəlir (meydana gəlir). Əlbəttə ki,* ***O QÜVVƏT-İ AZİMƏDƏKİ (böyük gücdəki) BİR HAMİYƏT-İ ALİYƏ (böyük bir səy) FƏVƏRAN EDƏCƏK (hərəkətə gələcək) və HƏZRƏTİ MEHDİ BAŞINA KEÇİB, TARİX-İ HAQQ (haqq yola) VƏ HƏQİQƏTƏ SÖVQ EDƏCƏKDİR.*** *(Mektubat, səh. 473)*

Bədiüzzaman, Axırzamanda müsəlmanların çox çətin hadisələrlə üz-üzə gələcəyini bildirmişdir. Bu mühit indiki vaxtda, yəni Axırzamanda meydana gəlir. Dünyanın bir çox yerində İslama və müsəlmanlara qarşı yaradılan çətin şəraitlər, müsəlmanlar arasında İslama olan sevgini artırır və bu da müsəlmanları çıxış yolları axtarmağa sövq edir. Bədiüzzaman da bu sözləriylə, hz. Mehdinin zühurundan əvvəl reallaşacaq olan bu vəziyyəti xatırladır.

Bədiüzzaman, müsəlmanlarda əmələ gələn İslamı qorumaq səyinin artması nəticəsində, hz. Mehdinin müsəlmanların liderliyini boynuna götürərək, İslam əxlaqını bütün dünyada hakim edəcəyi və insanları **“TARİXİ HAQQ VƏ HƏQİQƏTƏ”**, yəni **“HAQQ YOLA VƏ HƏQİQƏTƏ”** yönəldəcəyini bildirmişdir.

*7) O ŞƏXSİN üçüncü vəzifəsi Xilafət-i İslamiyyəni (İslam xəlifəliyini) İttihadi-İslama bina edərək (İslam Birliyi üzərində quraraq), isəvi ruhaniləriylə (dindar xristianlarla və xristian alimləriylə) ittifaq edib (iş birliyi və həmrəylik edərək) İslam dininə xidmət etməkdir.* ***BU VƏZİFƏ, ÇOX BÖYÜK BİR GÜC, SƏLTƏNƏT*** *və milyonlarla insanın fədakarcasına iştirakı ilə* ***YERİNƏ YETİRİLƏ BİLƏR.*** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman İslam birliyi ilə müsəlman və xristian dünyasının haqq din uğrunda ittifaq yaratması kimi böyük bir hadisənin ancaq üç şərtin meydana gəlməsiylə reallaşa biləcəyinə diqqət çəkmişdir. Bədiüzzaman **“ÇOX BÖYÜK BİR GÜC VƏ SƏLTƏNƏT”** sözləri ilə bu şərtlərdən ikisini izah edir. **“Səltənət”** anlayışı güc və səlahiyyət ifadə edən bir sözdür. **“GÜC”** anlayışı isə “istədiyi şeyi icra edə bilmə gücünü, yəni səlahiyyət”ni ifadə edir. Bədiüzzaman hz. Mehdinin İslam birliyini yaradıb bu birliyin liderliyini boynuna götürəcəyini və **“çox böyük bir güc və səlahiyyətə sahib olacağını”** bildirmişdir. Bədiüzzamanın **“ÇOX BÖYÜK”** sözləri hz. Mehdinin sahib olacağı bu gücün və səltənətin təsir dairəsinin böyüklüyünü ifadə edir. Bədiüzzaman bu sözləri ilə Allahın izni ilə hz. Mehdinin İslam əxlaqını bütün dünyaya hakim edəcəyini bildirir.

*8)* ***BƏLİ ÜMİDVAR OLUN! BU İSTİQBAL İNQİLABI İÇƏRİSİNDƏ ƏN YÜKSƏK GURLU SƏDA, İSLAMIN SƏDASI OLACAQDIR.*** *(Tarihçe-i Hayat səh. 133), (Hizmet Rehberi səh. 239)*

Bu sözündə də Bədiüzzaman yenə İslam əxlaqının bütün dünyada hakim olacağını deyir, bütün müsəlmanları bu tarixi hadisə ilə müjdələyir.

**Batin təfsirçilərinə görə:**

Bədiüzzaman burada sadəcə bir qisminə yer verdiyimiz sözlərində, İslam əxlaqının hz. Mehdi vəsiləsiylə bütün dünyada hakim olacağını aydın şəkildə bildirir. Batin təfsirçilər isə Bədiüzzamanın bu əhəmiyyətli müjdələrini nəzərdən qaçırır və bu mövzunu müxtəlif formalarda ifadə edirlər. Heç bir dəlilə istinad etmədən irəli sürülən bu mövzudakı fikirlərdən bəzilərini belə sıralaya bilərik:

**1 - Batin təfsirçiləri "<u>İslam əxlaqının hakimiyyəti onsuz da yaranmışdır</u>" deyirlər:**

İslam əxlaqının bütün dünyaya hakim olması kimi bütün dünyanın gözləri qabağında reallaşacaq bir vəziyyət nə Bədiüzzamanın yaşadığı dövrdə, nə də ondan əvvəlki mücəddidlərin dövründə reallaşmamışdır.

**2 – "Bəs İslam əxlaqı hakim olduğu vaxt müsəlman aləminin bir başçısı olmuşdurmu?" <u>deyildiyində, "xeyr, eyni anda çox adam lider ola bilər, şəxsi mənəvi də lider ola bilər, ya da liderə ehtiyac yoxdur" kimi hz. Mehdini rədd etmək üçün müxtəlif etiraz, təfsir və bəhanələr gətirirlər</u>:**

İslam əxlaqının dünya hakimiyyətinin reallaşdığını iddia edən bu kəslər, əlbəttə ki, izah etməkdə çətinlik çəkdikləri bir xüsusla üz-üzə gəlirlər. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və bu günə qədər gəlib-getmiş bütün əhli-sünnə alimlərinin izahlarında, bu hakimiyyətin başında bir lider olaraq hz. Mehdinin olacağı xəbər verilir. Bədiüzzamanın şərhlərində də bu mövzu eyni şəkildə izah edilmişdir. Bu vəziyyət həmçinin, Allahın Quranda bildirdiyi adətullahının da bir gərəyidir. Tarixən mövcud olmuş hər müsəlman birliyinin başında bir lider olmuşdur. Heç bir elçi və ya peyğəmbər, mücəddid ya da müctəhid bir şəxsi mənəvi olmamışdır. Hər biri Allahın vəzifələndirdiyi bir şəxs olaraq insanları din əxlaqını yaşamağa dəvət etmişlər. Axırzamanda da Allahın bu adətullahı dəyişməyəcək, hz. Mehdi də hədislərdə və İslam alimlərinin əsərlərində bildirildiyi kimi bir şəxs olacaqdır.

Bütün bu məlumatlar bir qisim şəxslərin irəli sürdükləri "liderə ehtiyac yoxdur" ya da "şəxsi mənəvi lider olacaqdır" kimi şərhlərin etibarsızlığını aydın şəkildə ifadə edir.

**3- Batin təfsirçilər "<u>bu vəzifəni hz. Mehdinin şəxsi mənəvisi yerinə yetirəcək</u>" deyirlər:**

Bədiüzzamana Mehdilik hüsnü-zənni ilə yaxınlaşan kəslər, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Bədiüzzamanın da əsərlərində izah etdiyi hz. Mehdinin ikinci və üçüncü vəzifələrinin yerinə yetirilməmiş olması mövzusuna bir izah gətirmirlər. Çünki Bədiüzzaman ömrünü İslama xidmət etməyə həsr etmiş, bu uğurda hər cür fədakarlığı gözə alaraq imani cəhətdən çox böyük bir xidmət göstərmişdir. Ancaq yaşadığı müddət ərzində bütün müsəlmanların mənəvi lideri xüsusiyyətinə sahib olmamış, İslam birliyini yaratmamış, xristian dünyası ilə ittifaq yaratmamış, hz. İsa ilə bir yerə gəlməmiş, birlikdə namaz qılmamış və İslam əxlaqının bütün dünyaya hakim olmasına vəsilə olmamışdır.

Sözlərində izah etdiyi kimi, siyasət və səltənət aləmində Mehdilik vəzifəsini boynuna götürməmişdir. Bütün dünyaya haqq və ədalət gətirməmiş, bütün müsəlman dünyasıdakı zülm və haqsızlıqların aradan qaldırılmasına vəsilə olmamışdır. Budur Bədiüzzamana mehdiyyət mövzusunda hüsnü-zənn bəsləyən kəslər də bu həqiqətləri dərk etdikləri üçün bu mövzunu öz aləmlərində izah etməyə çalışırlar. Bunun üçün də, Bədiüzzamanın sözlərinə "batini təfsir" adı altında bəzi şərhlər gətirərək, bütün bu vəzifələri hz. Mehdinin deyil, onun şəxsi mənəvisinin, yəni tələbələrinin və əsərlərinin yerinə yetirəcəyi fikrini müdafiə edirlər.

Halbuki, bu bölmənin 3-cü maddəsində Bədiüzzamanın sözləriylə sübut olunaraq izah edildiyi kimi, Bədiüzzaman əsərlərinin heç bir yerində "hz. Mehdi bir şəxsi mənəvi olacaq" şəklində bir söz işlətməmişdir. Əksinə, hz. Mehdidən hər bir sözündə "zat və ya şəxs" kimi ifadələrdən istifadə etməklə bəhs etmişdir. Həmçinin, hz. Mehdinin hz. İsa ilə birlikdə namaz qılacaqlarını ifadə etmişdir. Bədiüzzamanın bu şərhlərinə məhəl qoymadan, "hz. Mehdi bir şəxsi mənəvi olacaq və İslamın hakimiyyətini də bu şəxsi mənəvi təmin edəcək" şəklində bir açıqlama edə bilmək heç cür mümkün deyildir.

6- Bədiüzzaman tələbələrinin özünə qarşı bəslədiyi hüsnü zənlərinin bir səhv və qarışdırma olduğunu səbəbləriylə bərabər izah etmişdir, təfsirçilər isə "təvazökarlıq edir, qəsdən elə deyir" deyirlər.

**Bədiüzzamana görə:**

**Və ONUN ÜÇ BÖYÜK VƏZİFƏSİ OLACAQ.** *(Emirdağ Lahikası, səh. 260)*

Bədiüzzaman əsərlərində **"hz. Mehdinin bir və ya iki vəzifəsinin deyil, tam olaraq ÜÇ VƏZİFƏSİNİN olduğunu"** bildirir. Bu üç vəzifəni də eyni anda yerinə yetirməyən şəxslərin isə Axırzamanın böyük Mehdisi ola bilməyəcəyini ifadə etmişdir.

Bədiüzzamanın bu mövzudakı ətraflı şərhlərinə baxmayaraq, bu mühüm həqiqət nəzərdən qaçırılaraq Bədiüzzamanın Mehdi ola biləcəyi istiqamətində bəzi fikirlər irəli sürülür. Halbuki, Bədiüzzaman əsərlərində bu mövzuya şəxsən özü aydınlıq gətirmiş, Mehdi olmadığını səhifələrlə yazdığı sübutlarla bərabər izah etmişdir. Bu mövzudakı bütün bu aydın bəyanlarına baxmayaraq Risalə-i Nura və bu əsərin müəllifi kimi özünə Mehdilik mövzusunda hüsnü-zənn bəsləyənlərə isə, bu düşüncələrinin **"qarışdırmadan qaynaqlanan bir səhv olduğunu"** demişdir:

"Risalə-i Nurun şəxsi mənəvəsini (camaatını) haqlı olaraq hz. Mehdi tələqqi edirlər (şəxsi bir görüş olaraq qəbul edirlər). O şəxsi mənəvinin də bir mümməssili (nümayəndəsi), Nur tələbələrinin təsanüdündən (həmrəyliyindən) gələn bir şəxsi mənəvisi və o şəxsi mənəvinin bir nevi mümməssili (nümayəndəsi) olan BİÇARƏ TƏRCÜMƏÇİSİ ZƏNN ETDİKLƏRİNDƏN, BƏZƏN ONA (hz. Mehdi adını) O ADI VERİRLƏR. Hərçənd BU, BİR İLTİBAS (qarışdırma) biR SƏHVDİR (xətadır, yanılmadır), lakin onlar onda məsul deyildirlər. ÇÜNKİ HƏDDƏN ÇOX HÜSNÜ-ZƏNN, KÖHNƏDƏN BƏRİ CƏRƏYAN EDİR VƏ

ETİRAZ EDİLMƏZ. Mən də o qardaşlarımın çox-çox hüsnü zənnlərini bir dua bənzəri və bir xahiş və Nur tələbələrinin kamalı etiqadlarının (imanlarının fəzilətinin) bir tərəşşuhu (əks olunması) gördüyümdən onlara çox toxunmazdım ... *(Tılsımlar Mecmuası, s. 201) (Emirdağ Lahikası, s. 248)*

Bədiüzzaman Risalə-i Nurun şəxsi mənəvisinin və bu əsərlərin müəllifi olaraq özünün bəzən hz. Mehdi ola biləcəyinin güman edildiyini, ancaq bunun bir qarışdırma və səhv olduğunu ifadə etmişdir. Başqa bir sözündə isə bu düşüncəyə sahib olan kəslərin iman həqiqətlərini izah etmə mövzusu istiqamətində bir dəyərləndirmə etdiklərini, ancaq hz. Mehdinin digər iki vəzifəsi olan **"İslam birliyinin təmin edilməsi, bütün İslam dünyasının lideri olunması və hz. İsa ilə birlikdə İslam əxlaqının dünyaya hakim olmasının özündə görünmədiyi xüsusunu nəzərə almadıqlarını"** demişdir. Bundan ötəri də **Risalə-i Nura və özünə edilən Mehdilik bənzətməsinin sadəcə bir "zənn"dən ibarət olduğunu ifadə etmişdir:**

***...O GƏLƏCƏK ŞƏXSƏ DAİR XƏBƏRLƏRİ VƏ İŞARƏLƏRİ RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNƏ HƏTTA BƏZƏN TƏRCÜMƏÇİSİNƏ DƏ UYĞUNLAŞDIRMAĞA CƏHD ETMİŞLƏR*** *və Şəriət-i ihya (Quran əxlaqının əsaslarını xatırladaraq yenidən həyata keçirmə) və xilafəti tətbiq olan* ***ÇOX GENİŞ ƏRAZİDƏ HÖKM VERƏN BU MÜHÜM VƏZİFƏSİNİ NƏZƏRƏ ALMAMIŞLAR.*** *(Tılsımlar Mecmuası, səh. 168)*

Bədiüzzaman bu sözüylə, hz. Mehdiyə aid xəbər və işarələrin Risalə-i Nur camaatıyla uyğunlaşdırılmağa cəhd edildiyini, ancaq bu bənzətmənin hz. Mehdi ilə əlaqədar verilən məlumatlara uyğun gəlmədiyini ifadə etmişdir. Bədiüzzaman bu bənzətməni edən kəslərin hz. Mehdinin iki böyük və əhəmiyyətli vəzifəsini nəzərə almadıqları üçün belə səhv bir qənaətə gəldiklərini ifadə edir. İslam birliyinin təmin edilməsi və hz. Mehdinin bütün müsəlmanların liderliyini boynuna götürməsi, xristianlarla ittifaq təmin edilməsi və hz. İsa ilə birlikdə Quran əxlaqının bütün yer üzünə hakim olması bu ana qədər hələ reallaşmamışdır. Bədiüzzaman da daxil olmaqla, Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı dövrlərdə gəlib-getmiş mücəddidlərdən heç biri bu böyük vəzifələri yerinə yetirməmişlər. Buna görə də, Bədiüzzaman da bu həqiqəti dilə gətirərək Risalə-i Nurun şəxsi mənəvisini Mehdiliklə səciyyələndirənlərin yanıldıqlarını ifadə edir. Belə ki, bir mövzuda bir adama hüsnü-zənn bəslənməsi, bu düşüncənin həqiqəti əks etdirdiyini göstərən bir dəlil olmadığı aydındır. Onsuz da Bədiüzzaman da risalələrində bunu dilə gətirmişdir.

Bundan əlavə, Bədiüzzaman sözlərində hz. Mehdinin fərqləndirici bir xüsusiyyəti olaraq **"ÇOX GENİŞ ƏRAZİDƏ HÖKM SAHİBİ OLMASI"**na diqqət çəkmişdir. Hz. Mehdinin bu xüsusiyyəti olduqca vacibdir. Hz. Mehdi vəzifələrini sadəcə müəyyən bir bölgədə yerinə yetirməyəcək, onun təsir sahəsi çox geniş bir ərazidə, yəni dünya səviyyəsində olacaqdır. Bədiüzzaman **"dar dairə"** olaraq ifadə etdiyi **"kiçik diametrli"** tətbiqlərin müsəlmanları yanıltmamasının lazım olduğunu bildirir. Hz. Mehdinin ikinci və üçüncü vəzifələrini geniş ərazidə reallaşdıracağını xatırladaraq, öz şəxsinə və Risalə-i Nurun şəxsi mənəvisinə edilən Mehdilik bənzətməsinin səhvini sübutlarla bərabər izah edir.

Bədiüzzamanın hz. Mehdinin yerinə yetirəcəyini ifadə etdiyi vəzifələr mövzusunda **"ÇOX GENİŞ ƏHATƏLİ BİR HÖKM VERMƏK"**, yəni **"DÜNYA MİQYASINDA"** bir nəticə isə, əvvəlcədən də ifadə etdiyimiz kimi, bu günə qədər reallaşmamışdır. Bu da hz. Mehdinin keçmiş dövrdə zühur etmiş bir şəxs olmadığını aydın şəkildə ifadə edir. Bəhsi keçən üç vəzifənin dünya səviyyəsində yerinə yetirilməsi, Allahın izni ilə hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən olacaq və onu bütün insanlara tanıdacaqdır.

Bədiüzzaman sözlərində dəfələrlə, nə əvvəlki əsrlərdə gələn mücəddidlərin dövründə, nə də öz yaşadığı dövrdə, hz. Mehdinin üç vəzifəsinin eyni anda yerinə yetirilmədiyini və bunu ancaq hz. Mehdinin reallaşdıra biləcəyini ifadə etmişdir. Bədiüzzamanın bu mövzunu izah edən sözlərindən biri belədir:

***Hərçənd hər əsrdə hidayət verən, hz. Mehdi bənzəri və mücəddid gələr və gəlmişdir. Lakin <u>HƏR BİRİ ÜÇ VƏZİFƏLƏRDƏN BİRİNİ BİR BAXIMDAN YERİNƏ YETİRMƏSİNƏ GÖRƏ</u> AXIRZAMANIN BÖYÜK MEHDİSİ ÜNVANINA SAHİB OLMAMIŞLAR.*** *(Emirdağ Lahikası, səh. 260)*

**<u>Batin təfsirçilərinə görə:</u>**

Bədiüzzaman sözlərində özünə və Risalə-i Nura Mehdilik bənzətməsi edən kəslərin yanıldıqlarını bildirir və bunun səbəblərini də sübut edir. Ancaq Bədiüzzamanın bu mövzuya aydınlıq gətirən bu sözləri nəzərə alınmır və müxtəlif təfsir üsullarıyla təfsir edilməyə cəhd göstərilir. Bədiüzzamanın özünə yönəldilən Mehdilik bənzətməsini qəbul etməməsinin təvazökarlıqdan qaynaqlandığı ya da bunun Bədiüzzamanın Mehdiliyini gizlətmək üçün qəsdən istifadə etdiyi bir taktika olduğu iddia edilir.

Ancaq bu mövzuda bir çox səhvlərin olmasından söhbət gedə bilər. Hər şeydən əvvəl Bədiüzzamanın sadəcə təvazökarlıq naminə inanmadığı bir şeyi risalələrinə köçürtməsi mümkün deyildir. Üstəlik, inanmadığı və bütün müsəlmanların səhv məlumatlandırılmasına səbəb olacaq belə bir mövzunu gizlədə bilmək üçün, sadəcə taktika məqsədli olaraq, yüzlərlə səhifə etibarilə yazı yazması, hz. Mehdi olmadığını izah edə bilmək üçün onlarla dəlil təqdim etməsindən söhbət gedə bilməz. Bədiüzzaman Səid Nursi həzrətlərinin dürüstlüyü və doğru sözdən əsla ayrılmaması onun bütün ömrünə hakim olan çox əhəmiyyətli bir xüsusiyyətidir. Allah qorxusu olduqca güclü olan Bədiüzzaman kimi səmimi bir şəxsin yalan deyərək bütün cəmiyyəti aldatdığını demək heç bir şəkildə qəbul ediləcək bir yanaşma tərzi deyildir. Bədiüzzaman məhkəmələrdə belə doğru danışmasıyla və dürüstlüyü ilə tanınır. İstiqlal məhkəmələrində belə bu xüsusiyyətini heç cür tərk etməmiş, daima həqiqətləri demişdir. Doğru danışdığı üçün üzləşə biləcəyi heç bir çətinlikdən qorxmadığını isə məhkəmə müdafiələrində keçən bir sözündə ***"...Başım bədənimdən ayrılmadıqca və ya boynuma ip keçirilib asılmadıqca bu təklifinizi mənə tətbiq edə bilməzsiniz!"*** *(Bediüzzaman ve Talebelerinin Mahkeme Müdafaaları, səh. 379)* deyərək ifadə etmişdir.

**7-Bədiüzzaman "hz. Mehdi gələcəkdə zühur edəcək" deyir, təfsirçilər isə "gəlib-getdi" deyirlər.**

**Bədiüzzamana görə:**

Bədiüzzaman Risalə-i Nur Külliyatının müxtəlif hissələrində **"hz. Mehdinin gələcəkdə zühur edəcək bir şəxs olduğunu"** aydın şəkildə ifadə etmişdir. Bədiüzzamanın bu mövzunu izah edən sözlərindən bəziləri belədir:

***1) İSTİQBAL-İ DÜNYƏVİYYƏDƏ (dünyanın gələcəyində) 1400 İL SONRA ZÜHUR EDƏCƏK BİR HƏQİQƏTİN YAŞADIQLARI ƏSRƏ QARİB (yaxın) OLDUĞUNU ZƏNN ETMİŞLƏR.*** *(Sözler, səh. 318)*

Bədiüzzaman bu sözüylə, İslam tarixində əvvəllər də bir çox adamın hz. Mehdinin zühur tarixi ilə əlaqədar müxtəlif qənaətlərə gəldiklərini və bu mübarək şəxsin "öz yaşadıqları əsrə yaxın" bir tarixdə, ya da öz dövrlərində gələcəyini zənn etdiklərini ifadə etmişdir. Ancaq Bədiüzzaman **"QARİB (yaxın) OLDUĞUNU ZƏNN ETMİŞLƏR"** deyərək bəhsi keçən kəslərin hz. Mehdinin əvvəlki tarixlərdə zühur etmiş ola biləcəyini düşünməklə sadəcə **"zənn edərək"** yanıldıqlarını xatırlatmışdır. Bədiüzzaman, hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-dən **"1400 İL SONRA"** zühur edəcəyini xəbər vermişdir.

Diqqət yetirilsə, Bədiüzzaman burada "hz. Mehdi zühur etdi ya da zühur etmişdir" demir "gələcək zamanda" olan bir sözdən istifadə edir və **"ZÜHUR EDƏCƏK"** deyir. Həmçinin, nə 1373, nə 1378, nə 1398, nə də başqa bir tarix verməmiş, tam olaraq 1400 il sonrasından bəhs etmişdir. Bu tarix miladi 1980-ci ilə uyğun gəlir. Hicri 13-cü əsrin mücəddidi olaraq hicri 14-cü əsrə qədər mücəddidlik vəzifəsini yerinə yetirən Bədiüzzaman, hicri 1379, yəni miladi təqvimlə 1960-cı ildə vəfat etmişdir. Buna görə də, Bədiüzzaman hz. Mehdinin zühuru üçün öz yaşadığı dövrdən çox sonrakı bir tarixi bildirir. Bədiüzzaman bu şərhiylə aydın və konkret bir tarix verərək özünün hz. Mehdi olmadığını ifadə edir, hz. Mehdinin öz vəfatından təxminən 20 il qədər sonra zühur edəcəyi ilə müjdələyir.

Bədiüzzaman bu sözüylə həmçinin, hz. Mehdinin zühurundan əvvəl Mehdi olduğu zənn edilən şəxslərin əksinə **"1400 il sonra zühur edəcək olan Mehdinin bir HƏQİQƏT"** olacağını ifadə etmişdir. Yəni, bu müqəddəs şəxsin Peyğəmbərimiz (s.ə.v)-in hədislərində müjdələdiyi bütün xüsusiyyətlərə sahib olan **"HƏQİQİ MEHDİ"** olacağını və bu xüsusiyyətləriylə Mehdi zənn edilən kəslərdən fərqləndirilib tanınacağını xatırlatmışdır.

Bədiüzzaman həmçinin, risalələrində Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq **"hər əsrin əvvəlində bir mücəddid göndəriləcəyini"** xatırlatmışdır. Bədiüzzaman, **"1400 İL SONRA"** tarixini verərək həmçinin, **"14-cü və 15-ci əsrlər arasında xidmət edəcək olan mücəddidin də hz. Mehdi olduğunu"** xəbər verir.

*2) Həm bu sirdəndir ki,* ***MEHDİ SÜFYAN KİMİ AXIRZAMANDA GƏLƏCƏK ŞƏXSLƏRİ*** *bundan xeyli vaxt əvvəl hətta tabiin (Peyğəmbərimiz (s.ə.v)-i görən möminlərlə, yəni*

*Əshabi-Suffa ilə görüşmüş və onlardan təhsil almış saleh müsəlmanlar) dövründə onları gözləmiş, onlara çatmaq üçün səy göstərmişlər". (Sözler, səh. 358)*

Bədiüzzaman bu sözündə istifadə etdiyi, gələcək zamanı bildirən işlənmiş bir fel olan "gələcək" sözüylə hz. Mehdinin "sonrakı bir tarixdə zühur edəcək bir şəxs olduğunu" yenidən vurğulamışdır. Bədiüzzaman bu yolla yaşadığı dövrdə hz. Mehdinin hələ zühur etməmiş olduğunu aydın bir şəkildə ifadə edir.

*3) **Həqiqi gözlənilən və <u>BİR ƏSR SONRA ZÜHUR EDƏCƏK O ŞƏXS</u>** indiki dövrdə gəlsə belə... (Kastamonu Lahikası, səh. 57)*

Bədiüzzaman, hz. Mehdinin hələ zühur etmədiyini, müsəlmanlar tərəfindən gözlənildiyini və öz yaşadığı dövrdən bir əsr sonra zühur edəcəyini bildirir.

Bədiüzzaman **"HƏQİQİ GÖZLƏNİLƏN"** sözləri ilə hz. Mehdinin **"HƏLƏ GÖZLƏNİLDİYİNİ"** ifadə edir. Şübhəsiz ki, əgər Bədiüzzaman hz. Mehdinin öz yaşadığı dövrdə zühur etmiş olduğunu fikirləşsəydi, bu ifadədən istifadə etməzdi. "Həqiqi gözlənilən" sözünün əvəzinə "zühur etmiş olan" və ya "zühur edən" deyərdi. Ancaq belə bir sözü risalələrin heç bir yerində işlətməmişdir. Tam əksinə, Bədiüzzaman hz. Mehdinin hələ zühur etmədiyini və zühurunun bütün İslam aləmi tərəfindən gözlənildiyini aydın şəkildə ifadə edir. Aydındır ki, Bədiüzzaman hz. Mehdinin özündən sonrakı bir dövrdə və mütləq zühur edəcəyi mövzusunda qəti bir qənaətə sahibdir və bunu israrla dilə gətirir.

Bundan əlavə, Bədiüzzaman burada istifadə etdiyi **"HƏQİQİ"** sözüylə də, hz. Mehdinin zühurunun nə qədər qəti bir həqiqət olduğunu ifadə edir.

Həmçinin, Bədiüzzaman hz. Mehdinin yalnız gələcəkdə zühur edəcəyini bildirmir, bununla yanaşı bu mübarək şəxsin gəliş vaxtını da müjdələyir. Hz. Mehdinin **"ÖZÜNDƏN BİR ƏSR SONRA, YƏNİ HİCRİ 1400-CÜ İLLƏRDƏ"** zühur edəcəyini xəbər verir.

Şübhəsiz ki, əgər Bədiüzzaman hz. Mehdinin öz dövründə yaşadığını fikirləşsəydi, belə uzaq bir tarix verməz, əksinə, aydın şəkildə ifadə edərdi. Demək ki, Bədiüzzamanın bu mövzudakı qənaəti heç bir etiraza yol verməyəcək qədər qətidir.

*4) **...<u>O GƏLƏCƏKDƏ ZÜHUR EDƏCƏK ACİB (təccübləndirən, heyrət oyandıran, bənzəri olmayan) ŞƏXSİN</u>** bir xidmətçisi və ona zəmin hazırlayacaq bir dümdarı (yardımçı qüvvəsi) və o böyük sərkərdənin qabaqcıl bir əsgəri olduğumu zənn edirəm. (Barla Lahikası, səh. 162)*

Bədiüzzaman bu sözündə də yenidən hz. Mehdinin özündən sonrakı bir tarixdə gələcəyini ifadə etmişdir. Özünün hz. Mehdidən əvvəlki dövrdə yaşadığını isə, özünü "hz. Mehdinin qabaqcılı" olaraq xarakterizə edərək ifadə etmişdir.

Bədiüzzaman, burada da yenə "zühur etmiş" və ya "zühur etdi" kimi öz dövrünü və özündən əvvəlki dövrü nəzərdə tutan ifadələrə yer verməmiş, **"gələcəkdə zühur edəcək"** deyərək, hz. Mehdinin öz yaşadığı dövrdən sonra zühur edəcəyini izah etmişdir.

Bədiüzzaman bu sözüylə, öz gördüyü işlərin hz. Mehdiyə zəmin hazırlayacağını ifadə edir, özünü bu mübarək şəxsin **"XİDMƏTÇİSİ"** olaraq xarakterizə edir. Şübhəsiz ki, bu olduqca qəti bir şərhdir. Əgər Bədiüzzaman, özünün hz. Mehdi olduğu istiqamətində bir qənaətə sahib olsaydı, özünü "hz. Mehdinin xidmətçisi" olaraq xarakterizə etməzdi. Çünki "bir adamın eyni anda həm hz. Mehdi, həm də onun xidmətçisi ola bilməsi" mümkün deyildir. Buna görə də bu ifadə aydın bir şəkildə Bədiüzzamanın burada çox aydın bir şəkildə hz. Mehdi olmadığını ifadə etdiyini çatdırır.

Bundan əlavə **"DÜMDAR"** sözü **"yardımçı qüvvə"** mənasını verir. Bədiüzzaman bu sözüylə özünü, əsl mübarizəni yerinə yetirən şəxsə şərait hazırlayan yardımçı qüvvələrə bənzətmişdir. Beləliklə, özündən sonra zühur edəcək olan və yerinə yetirəcəyi böyük fikri mübarizə ilə İslam əxlaqının gətirdiyi bütün gözəllikləri yer üzünə hakim edəcək olan hz. Mehdinin bir yardımçısı olduğunu ifadə edir. Əgər Bədiüzzaman özünün hz. Mehdi olduğunu fikirləşsəydi, şübhəsiz ki, burada özünü "hz. Mehdinin yardımçısı" olaraq təsvir etməzdi. Çünki **"hz. Mehdinin və yardımçısının", "bir-birindən fərqli, iki ayrı adam"** olduğu çox aydındır. Əgər Bədiüzzaman "yardımçısıyam" deyirsə, bu onun özünün hz. Mehdi olmadığını ifadə etdiyi çox aydın bir ifadədir.

Bədiüzzamanın burada istifadə etdiyi **"PİŞDAR BİR NƏFƏR"** ifadəsi, **"QABAQDA GEDƏN BİR ƏSGƏR"** mənasını verir. Bədiüzzaman bu sözüylə özünü, qabaqda gedən aparıcı qüvvələrə bənzədərkən, hz. Mehdinin özündən sonra gələcəyini yenidən vurğulamışdır. Əgər Bədiüzzaman özünün hz. Mehdi olduğunu ifadə etmək istəsəydi, şübhəsiz ki, belə bir ifadədən istifadə etməzdi. Çünki bu ifadə əks istiqamətdə təqdim ediləcək bütün iddiaları əsassız hala salır və mövzuya qəti bir aydınlıq gətirir. Bədiüzzaman **"özünü QABAQDA GEDƏN"** bir adam olaraq xarakterizə etməklə, "hz. Mehdinin özündən sonra zühur edəcək" bir kimsə olduğunu dəqiqləşdirir.

Bədiüzzaman burada həmçinin, **"BİR NƏFƏR",** yəni əsgər sözündən istifadə edərək, özünün hz. Mehdi deyil, onun bir yardımçısı və ona xidmət edən bir vəzifə sahibi olduğunu yenidən ifadə edir. Bədiüzzaman, özünü bir **"XİDMƏTÇİSİ, QABAQCILI"** olaraq səciyyələndirdiyi və bu qədər təriflə, hörmətlə bəhs etdiyi hz. Mehdi bütün İslam aləmi tərəfindən əsrlərdir gözlənilir. Bədiüzzaman da bu şərhləriylə, hz. Mehdinin Axırzamanda Allahın izni ilə şübhəsiz zühur edəcəyi ilə möminləri müjdələyir.

*5) ...Bu həqiqətdən aydın olur ki, **<u>SONRAKI DÖVRDƏ ZÜHUR EDƏCƏK O MÜBARƏK ŞƏXS</u> RİSALƏ-İ NURU BİR PROQRAMI OLARAQ NƏŞR VƏ TƏTBİQ EDƏCƏK (yazıb-paylamaq yolu ilə yayacaq və tətbiq edəcəkdir).** (Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin əvvəlki mücəddidlərin və Bədiüzzamanın yaşadığı dövrdə zühur etmədiyini demiş, bu mübarək şəxsin bunların hamısından **"SONRA"** zühur edəcəyini ifadə etmişdir. Həmçinin, Bədiüzzaman bu vəziyyəti, sadəcə felin gələcək zamanında işlənmiş bir feldən istifadə edərək deyil, bunu bir də **"SONRA"** sözüylə təsdiqləyərək çox dəqiq bir üslubla izah etmişdir.

Bədiüzzaman bu sözündə də Risalə-i Nur Külliyatının hz. Mehdinin təbliğində istifadə etdiyi ilkin bir hazırlıq olduğunu ifadə etmişdir. Bədiüzzaman zühur etdiyi vaxt hz. Mehdinin risalələri hazır yazılmış vəziyyətdə əldə edəcəyini və imanı xilas etmək vəzifəsində risalələrdən faydalanacağını ifadə etmişdir. Bədiüzzaman bu sözləri ilə özünün hz. Mehdi olmadığına və hz. Mehdinin **"ÖZÜNDƏN SONRAKI DÖVRDƏ ZÜHUR EDƏCƏK BİR ŞƏXS OLDUĞUNA"** yenidən aydınlıq gətirir.

***6) ...TA AXIRZAMANDA HƏYATIN GENİŞ DAİRƏSİNDƏ (dünya səviyyəsində) ƏSL SAHİBLƏRİ, YƏNİ MEHDİ VƏ TƏLƏBƏLƏRİ, CƏNABI HAQQIN İZNİ İLƏ GƏLƏR, O DAİRƏNİ GENİŞLƏNDİRƏR*** *və* ***O TOXUMLAR SÜNBÜLLƏNƏR. BİZ DƏ QƏBRİMİZDƏ SEYR EDİB, ALLAHA ŞÜKÜR EDƏRİK.*** *(Kastamonu Lahikası, səh. 99)*

Bədiüzzaman bu sözündə yenidən hz. Mehdinin özündən sonrakı bir dövrdə və sonrakı bir tarixdə zühur edəcəyini bildirir. Bədiüzzaman hz. Mehdi və tələbələrini Risalə-i Nurun əsl sahibləri olaraq səciyyələndirir, Risalə-i Nurun dar dairədə, yəni məhdud bir ərazi daxilində başlatdığı xidməti, daha sonrakı bir tarixdə zühur edəcək olan bu mübarək şəxsin tamamlayacağı və bunu dünya səviyyəsində bir xidmətə çevirəcəyi ilə müjdələyir.

Bədiüzzaman burada istifadə etdiyi **"TA AXIRZAMANDA"** sözləriylə, hz. Mehdinin gələcəyi vaxtı ifadə edir. Bədiüzzaman bu ifadəsiylə, əvvələn hz. Mehdinin özündən "sonrakı bir tarixdə" zühur edəcəyini dilə gətirir. Bədiüzzamanın burada istifadə etdiyi **"TA"** sözü isə bu mövzuya aydınlıq gətirən əhəmiyyətli bir ifadədir. **"TA"** sözü məsafə bildirən bir sözdür. Bədiüzzaman bu əlavə ilə, "Axırzamanın öz yaşadığı dövrdən xeyli vaxt sonra, daha uzaq bir dövr olduğunu" ifadə edir.

Bədiüzzaman, hz. Mehdidən əvvəl gəlmiş, insanların Allahın dinindən uzaqlaşdığı bir dövrdə Quran əxlaqı və iman həqiqətləri üzərində dayanaraq çox böyük bir imani fəaliyyət başlatmışdır. **"O TOXUMLAR SÜNBÜLLƏNƏR"** sözləriylə, bu böyük fikri mübarizəsini toxum əkməyə bənzədir. Sonradan hz. Mehdi dövründə bu iman toxumlarının sünbülləncəyini, yəni hz. Mehdinin Bədiüzzamanın başlatdığı bu imani fəaliyyətləri genişlədəcəyini və nəticə əldə edəcəyini ifadə edir. Bədiüzzaman çəkdiyi bu məsəllə özünün hz. Mehdidən əvvəlki bir dövrdə yaşadığını, hz. Mehdinin zühurunun isə özündən sonrakı bir dövrdə reallaşacağını aydın şəkildə ifadə edir.

Bədiüzzaman **"BİZ DƏ QƏBRİMİZDƏN SEYR EDƏRİK"** sözləriylə, əkdiyi iman toxumlarının sünbülləncəyini, yəni hz. Mehdinin Quran əxlaqını bütün dünyaya hakim edəcəyi dövrdə, özünün vəfat etmiş olacağını ifadə etmişdir. Bədiüzzaman bu sözüylə yenidən özünün hz. Mehdi olmadığını, onun gəlib vəzifəsinə başladığı dövrdə özünün həyatda olmayacağını xatırladaraq ifadə etmişdir.

**<u>Batin təfsirçilərinə görə:</u>**

Bədiüzzaman hz. Mehdinin özündən sonrakı bir tarixdə zühur edəcəyini dəfələrlə və çox aydın ifadələrlə izah etmişdir. Ancaq Bədiüzzamanın sözlərinin aydınlaşması üçün risalələrdəki sözlərin qeyri-kafi olduğunu fikirləşənlər, bu mövzunu risalələrdə izah edildiyi formada qəbul etmirlər. Hz. Mehdinin çoxdan zühur etdiyini və vəzifələrini yerinə yetirdiyini ifadə edirlər. Halbuki, bu fikir həm Peyğəmbərimiz (s.ə.v)-in hədislərində verdiyi xəbərlərlə, həm də Bədiüzzamanın risalələrdə izah etdikləriylə tamamilə ziddiyyət təşkil edir. Bir adamın hz. Mehdinin keçmiş dövrlərdə zühur etmiş olduğundan bəhs edə bilməsi üçün bu şəxsin müsəlmanların xəlifəsi, yəni mənəvi lideri xüsusiyyəti ilə bütün dünya müsəlmanları arasında İslam birliyini qurduğu vaxt, bu birlik vəsiləsiylə xristian dünyasıyla dinsizliyə qarşı ittifaq yaratdığından və Peyğəmbərimiz (s.ə.v)-in sünnələrini dirçəldib dini bütün batil inanc və tətbiqlərdən təmizləyib, hz. İsa ilə birlikdə İslam əxlaqını bütün yer üzünə hakim etdiyindən də bəhs edə bilməsi lazımdır. Ancaq bu hadisələrin heç biri hələ reallaşmadığı üçün bu iddiayla ortaya çıxan kəslərin yanıldıqları da çox aydın bir şəkildə görünür.

**8-Bədiüzzaman, "<u>Mehdinin siyasət aləmində də vəzifəsinin olduğunu</u>" deyir, təfsirçilər isə "Mehdi siyasət aləmində olmayacaq" deyirlər.**

**<u>Bədiüzzamana görə:</u>**

Bədiüzzaman hədislərdə verilən bu məlumatlara əsaslanaraq, Axırzamanda zühur edəcək olan hz. Mehdinin eyni anda üç fərqli sahədə Mehdilik vəzifəsini yerinə yetirəcəyini, yəni həm **"SİYASƏT MEHDİSİ"**, həm **"SƏLTƏNƏT MEHDİSİ"**, həm də **"DİYANƏT MEHDİSİ"** olacağını ifadə etmişdir. Bədiüzzamanın, hz. Mehdinin bu əhəmiyyətli xüsusiyyətini izah etdiyi sözlərindən biri belədir:

***Böyük Mehdinin vəzifələri çoxdur. Və <u>SİYASƏT, DİYANƏT, SƏLTƏNƏT, MÜBARİZƏ SAHƏSİNDƏ</u> və bir çox sahədə işləri olduğu kimi..."*** *(Şualar, səh. 590)*

Bədiüzzaman bu sözləri ilə, hz. Mehdinin siyasət sahəsində əhəmiyyətli vəzifələr boynuna götürəcəyini bildirir. Hz. Mehdinin "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi", yəni "müsəlmanların mənəvi lideri" xüsusiyyətinə sahib olaraq bütün dünya müsəlmanları arasında İslam birliyini quracağını, xristian aləmiylə ittifaq yaradacağını və hz. İsa ilə birlikdə İslam əxlaqını bütün dünyada hakim edəcəyini bildirir. Bədiüzzamanın ətraflı olaraq izah etdiyi hz. Mehdinin boynuna götürəcəyi bütün bu vəzifələr, hz. Mehdinin **"Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi, yəni bütün dünya müsəlmanlarının mənəvi lideri"** xüsusiyyətinə sahib olacağını və **"idarəçi"** mövqeyində çıxış edəcəyini aydın şəkildə ifadə edir.

**Müsəlmanları maraqlandıran hər mövzuya çıxış yolu tapan bir adam olaraq mənəvi liderləri hz. Mehdi olacaqdır.** Hz. Mehdinin boynuna götürəcəyi bu vəzifənin nə cür adlandırıldığı əhəmiyyətli deyildir. **Hz. Mehdinin məşğul olacağı siyasət, "<u>Quran əxlaqı çərçivəsindəki siyasət</u>" olacaqdır.** Əhəmiyyətli olan hz. Mehdinin yerinə

yetirəcəyi bu vəzifənin "**Quranın bir hökmü**" olmasıdır. **Quran əxlaqına uyğun siyasətin** mənası **gözəl əxlaqlı, şəfqətli, mərhəmətli olmaq, ədalətli davranmaq, möminlər arasında birlik və qardaşlığı, sülhü və ictimai ədaləti təmin etmək, ədalətsizliyi aradan qaldırmaq, zənginlik və rifahı təmin etməkdir.** Quranda hz. Mehdinin yerinə yetirəcəyi bu vəzifə **"İslam əxlaqının hakimiyyəti"** olaraq müjdələnir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir... (Nur surəsi, 55)**

Hz. Mehdi də Quranın bu hökmü gərəyi, bütün müsəlmanların dincliyini, birlik və həmrəyliyini təmin edəcək, İslam əxlaqının gözəlliyini bütün dünyada hakim edəcəkdir. Bədiüzzamanın da siyasət və səltənət anlayışlarıyla nəzərdə tutduğu əsas mövzu budur: **"Hz. Mehdinin bütün dünya müsəlmanlarının liderliyini boynuna götürməsi və Quranda ifadə edilən bu hökmə uyğun olaraq İslam dünyasının mənfəətləri istiqamətində fəaliyyətlər yerinə yetirməsi"**dir. Bütün bunlar Quran əxlaqının və Quran ayələrinin bir gərəyidir. Bədiüzzamanın ***"o şəxsin ikinci vəzifəsi Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini icra və tətbiq etməkdir"*** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)* sözləriylə bildirdiyi kimi, hz. Mehdi də Quran əxlaqının tələblərini tətbiq etdiyi vaxt, İslam birliyinin yaranmaması, hz. Mehdinin idarəçi xüsusiyyətinə sahib olmaması, səlahiyyət sahibi olmaması ya da lider mövqeyində olmamasından söhbət gedə bilməz. Çünki bütün bunlar Allahın bütün müsəlmanları yaşamaqla məsul etdiyi hökmlərdir. Necə ki, Bədiüzzaman da hz. Mehdinin bu xüsusiyyətlərə sahib olacağını **"Xilafət-i Məhəmmədiyyə (s.ə.v) (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi) ünvanı ilə şəair-i İslamiyyəni (İslam əxlaqının əsaslarını) ihya etməkdir (yenidən canlandırmaqdr)"** *(Emirdağ Lahikası, səh. 259)* sözləri ilə ifadə edir.

Bir ayədə Allah müsəlmanlara aralarındakı **"əmr sahiblərinə"** tabe olmalarını belə bildirir:

**Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan əmr sahiblərinə də. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır. (Nisa surəsi, 59)**

Bu ayə kimi Quranda müsəlmanların Allahın özlərini dünyada və axirətdə xilas etməsi üçün göndərmiş olduğu elçilərə tabe olmaları ilə əlaqədar bir çox ayə vardır. Məhz, Bədiüzzamanın ***"siyasət, diyanət, səltənət, mübarizə sahəsində və bir çox sahədə işləri olduğu kimi"*** sözləriylə, hz. Mehdi üçün nəzərdə tutduğu siyasət anlayışı da budur.

Bədiüzzaman bu sözlərində yer alan "siyasət və səltənət" anlayışlarıyla hz. Mehdinin Quranın bu hökmünü necə yerinə yetirəcəyini izah edir.

Necə ki, risalələrdəki hz. Mehdinin vəzifələrinin izah edildiyi sözlər diqqətlə tədqiq olunduğu vaxt, Bədiüzzamanın bu sözləri ilə nəyi nəzərdə tutmuş olduğu asanlıqla aydın olur, hz. Mehdinin siyasət və səltənət sahəsində bir çox vəzifə boynuna götürəcəyi aydın şəkildə görünür.

**<u>Batin təfsirçilərinə görə:</u>**

Bədiüzzaman hz. Mehdinin siyasət sahəsində əhəmiyyətli vəzifələrinin olacağını aydın şəkildə ifadə etmişdir. Batin təfsirçiləri isə, Bədiüzzamanın bu aydın ifadələrini qəbul etmirlər. Hz. Mehdinin siyasət sahəsində bir vəzifə boynuna götürməyəcəyini, sadəcə iman həqiqətləri mövzusunda fəaliyyətlər göstərəcəyini irəli sürürlər.

Halbuki, heç bir dəlilə istinad etməyən bu fikir Bədiüzzamanın risalələrdə yüzlərlə səhifə etibarilə izah etdiyi məlumatlarla tamamilə ziddiyyət təşkil edir. Çünki əvvəlki sətirlərdə izah edildiyi kimi Bədiüzzaman əsərlərində hz. Mehdinin yerinə yetirəcəyi üç böyük vəzifə haqqında geniş məlumat vermiş və hz. Mehdinin "siyasət sahəsində Mehdilik vəzifəsini necə yerinə yetirəcəyini" təfərrüatlı olaraq izah etmişdir. Bu sözlərində, hz. Mehdinin "İslam əxlaqını bütün dünyaya hakim edəcəyini, müsəlmanların mənəvi liderliyini boynuna götürərək İslam birliyini təmin edəcəyini, xristian dünyası ilə ittifaq yaradacağını" təfərrüatlı olaraq izah etmişdir. Bədiüzzamanın bütün bu izahları heç bir müzakirə və ya şərhə yol verməyəcək qədər aydındır.

Çox aydındır ki, əgər Bədiüzzaman hz. Mehdinin sadəcə iman həqiqətləri istiqamətində bir xidmət göstərib, siyasət ya da səltənət sahələrində vəzifə yerinə yetirməyəcəyini düşünsəydi, risalələrdə belə bir şərhə yer verməz, hz. Mehdinin bu istiqamətdəki vəzifələrini Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq bu qədər uzun və ətraflı şəkildə izah etməzdi. Çünki Bədiüzzaman kimi dərin imanlı böyük bir mücəddidin əsərlərində düşündüyü və inandığı şeylərin tam tərsinə şərhlər etməsindən heç cür söhbət gedə bilməz.

**9-Bədiüzzaman "<u>Mehdinin İslam dünyasının başında olacağını</u>" deyir, təfsirçilər isə "Mehdi belə bir mövqe sahibi olmayacaq" deyirlər.**

**<u>Bədiüzzamana görə:</u>**

Allah Quranda "İslam əxlaqını bütün dünyaya hakim edəcəyini, iman edən qullarını güc və iqtidar sahibi edəcəyini" vəd etmiş və bu vədinin qəti olduğunu bildirmişdir. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, bütün böyük İslam alimlərinin və Bədiüzzamanın sözlərində də bu vəziyyətə "hz. İsa ilə hz. Mehdinin vəsilə olacaqları"

ifadə edilmişdir. Rəbbimizin bu vədi istiqamətində İslam əxlaqı bir gün mütləq hakim olacaq və bir adamın müsəlmanların liderliyini boynuna götürməsi lazım gələcəkdir. Bədiüzzaman bu cür dünya səviyyəsində bir hakimiyyətlə rastlaşmamış və bütün dünya müsəlmanlarının liderliyini boynuna götürməmişdir. Uzun müddətdir ki, İslam dünyasının başında bütün müsəlmanları bir yerə gətirəcək bir lider yoxdur. Müsəlmanların bu lideri 1400 ildir müjdələndiyi kimi hz. Mehdi olacaqdır. Yer üzündəki zülmü və qaranlığı aradan qaldıracaq, İslam əxlaqının gözəlliyinin bütün insanlar tərəfindən yaşanmasına vəsilə olacaqdır. Bədiüzzaman da əsərlərində bu həqiqəti dilə gətirmiş və hz. Mehdinin **"Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi, yəni müsəlmanların mənəvi lideri xüsusiyyətinə sahib olacağını"** bildirərək bütün müsəlmanları bu böyük hidayət liderinin gəlişiylə müjdələmişdir.

Bədiüzzaman risalələrdə hz. Mehdidən bəhs etdiyi bir çox sözündə, hz. Mehdinin **"İslam dünyasının lideri"** xüsusiyyətinə sahib olacağını ifadə etmişdir. Bu sözlərindən bir qismini belə sıralaya bilərik:

***1) İkinci vəzifəsi: XİLAFƏT-İ MƏHƏMMƏDİYYƏ (S.Ə.V) ÜNVANI İLƏ (<u>Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi ünvanı ilə)</u> şəair-i İslamiyyəni (İslam əxlaqının əsaslarını) ihya etməkdir (yenidən canlandırmaqdır)*** *(Emirdağ Lahikası, səh. 259)*

Hz. Mehdi hal-hazırda müxtəlif qruplar halında dağınıq vəziyyətdə yaşayan müsəlmanları birləşdirəcək, İslam əxlaq və fəzilətini, Peyğəmbərimiz (s.ə.v)-in həqiqi sünnəsini dirçəldəcəkdirdir. İslam aləminin birliyini meydana gətirəcək, bu vəsiləylə insanları maddi və mənəvi təhlükələrdən qurtaracaq və insanların Allahın razılığına uyğun bir həyat yaşayaraq Allahın əzabından çəkinmələrinə vəsilə olacaqdır.

Bədiüzzaman hz. Mehdinin bu ikinci vəzifəsini "Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi", yəni "Müsəlmanların mənəvi lideri" sifətiylə yerinə yetirəcəyini bildirmişdir. Şübhəsiz ki, hz. Mehdinin "İslam cəmiyyətinin lideri xüsusiyyəti ilə" İslamiyyəti yenidən dirçəltməsi, sayı milyonlara çatan bir birliyin maddi və mənəvi gücü ilə hərəkət edərək bütün yer üzündə İslam birliyini təmin etməsi xüsusiyyətləri, onun lider xüsusiyyətinə sahib olacağını aydın şəkildə ifadə edir.

***2) O ŞƏXSİN üçüncü vəzifəsi XİLAFƏT-İ İSLAMİYYƏNİ (<u>İslam xəlifəliyini) İTTİHAD-I İSLAMA (İslam Birliyi üzərində quraraq)</u>, İSƏVİ RUHANİLƏRİYLƏ (<u>dindar xristianlarla və xristian alimləriylə) İTTİFAQ EDİB (iş birliyi və həmrəyliklə) İSLAM DİNİNƏ XİDMƏT ETMƏKDİR</u>. Bu vəzifə, çox böyük bir güc, səltənət və milyonlarla insanın fədakarcasına iştirakı ilə yerinə yetirilə bilər.*** *(Sikke-i Tasdik-i Gaybi, səh. 9)*

Bədiüzzaman, hz. Mehdinin başqa bir vəzifəsinin də İslam cəmiyyətini birləşdirmək və xristian aləmiylə ittifaq yaratmaq olduğunu bildirmişdir. Hz. Mehdinin bu vəzifəsini iman sahiblərinin, Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələn fədakar seyidlərin və digər bütün müsəlmanların dəstəyiylə reallaşdıracağını bildirmişdir.

Bədiüzzaman bu sözüylə, **"hz. Mehdinin dünya səviyyəsində bütün müsəlmanların xəlifəsi vəzifəsini boynuna götürəcəyini"** yenidən ifadə edərək, **"hz. Mehdinin İslam dünyasının başında lider xüsusiyyəti ilə çıxış edəcəyini"** izah etmişdir.

Bədiüzzamanın hz. Mehdi ilə əlaqədar izahlarında dəfələrlə təkrarladığı hz. Mehdinin bu xüsusiyyətini görməməzlikdən gələrək, sadəcə iman həqiqətləri istiqamətində fəaliyyət göstərəcəyini iddia edə bilməkdən heç cür söhbət gedə bilməz. Bədiüzzaman çox aydın dəlillərlə, hz. Mehdinin bu sahələrdə müxtəlif fəaliyyətlər icra edəcəyini izah etmiş və bütün bunların hz. Mehdinin tanınmasındakı ən əhəmiyyətli əlamətlərdən olacağını ifadə etmişdir.

***3)*** *...**<u>Həzrəti Mehdinin o vəzifəsini şəxsən özünün yerinə yetirməsinə vaxt və vəziyyət imkan verməz. Çünki XİLAFƏT-İ MƏHƏMMƏDİYYƏ (S.Ə.V) (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəliyi) CƏHƏTİNDƏKİ (istiqamətindəki) SƏLTƏNƏTİ, ONUNLA MƏŞĞUL OLMAĞA VAXT VERMİR.</u> Yəqin ki, o vəzifəni ondan əvvəl bir taifə (topluluq) bir cəhətdə (istiqamətiylə) yerinə yetirəcəkdir. O şəxs o taifənin (topluluğun) uzun tədqiqatı ilə (araşdırmaqla) yazdıqları əsəri özünə hazır bir proqram edəcək, onunla o birinci vəzifəni tam yerinə yetirmiş olacaqdır...** (Emirdağ Lahikası, səh. 259)*

Bədiüzzaman hz. Mehdinin fəaliyyətlərindən əvvəl hz. Mehdinin birinci vəzifəsi olan iman həqiqətlərini yaymaq və materializmi fikrən yox etmək istiqamətində istifadə edəcəyi elmi vəsaitləri hazırlayacaq olan bir birlik olacağından bəhs edir. Bədiüzzaman **"bir cəhətdə"** yəni **"bir istiqamətiylə"** sözləriylə isə bu elmi birliyin materializmi fikrən təsirsiz hala gətirilməsi işlərini sadəcə bir baxımdan yerinə yetirəcəklərini, buna görə də **"hz. Mehdinin də özünə proqram edərək bu birliyin işlərindən bu istiqamətiylə faydalanacağını"** bildirir. Əvvəlki səhifələrdə də ifadə edildiyi kimi, materialist fəlsəfənin **"tam mənasıyla təsirsiz hala gətirilməsi"** isə ancaq hz. Mehdinin göstərəcəyi xidmətlər nəticəsində reallaşdırılacaqdır.

Bədiüzzaman hz. Mehdi üçün burada **"o vəzifəsini şəxsən özünün yerinə yetirməsinə vaxt və vəziyyət imkan verməz"** sözlərindən istifadə etmişdir. Bunun səbəbinin isə, **"hz. Mehdinin dünya səviyyəsində bütün "<u>Müsəlmanların mənəvi lideri</u>" olaraq "<u>siyasət və səltənət sahəsində reallaşdıracağı böyük vəzifələri</u>" səbəbiylə vaxtının olmaması olduğunu"** ifadə etmişdir.

Bədiüzzamanın bu şərhləri **"hz. Mehdinin bütün dünya müsəlmanlarının mənəvi lideri olaraq siyasət və səltənət sahələrində dünya səviyyəsində bir çox xidmətlər göstərəcəyini"** aydın şəkildə ifadə edir.

***4)*** *Axırzamanda **şəriət-i Məhəmmədiyyəni** (Peyğəmbərimiz (s.ə.v)-in yolunu, Quran əxlaqını), **həqiqət-i Furqaniyyəni (**Quranın əxlaqının əsaslarını və həqiqətlərini), **Sünnət-i Əhmədiyyəni (**Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) **ihya ilə** (<u>yenidən canlandırmaqla</u>) **elan və icra ilə** (<u>hər kəsə eşitdirərək və tətbiq edərək</u>) **<u>BAŞ SƏRKƏRDƏLƏRİ OLAN "BÖYÜK MEHDİ"NİN kamal-i ədalətini</u>** <u>(uca ədalətini),</u> **<u>haqqaniyyətini</u>** <u>(haqq və doğruluqdan ayrılmamağını, doğruluğunu)</u> **dünyaya göstərmələri çox məqbul olmaqla yanaşı çox lazım, zəruri və insanların həyat-i ictimaiyyə-i insaniyyədəki düsturların** (cəmiyyət həyatına aid qaydaların) **müktəzasdır** (gərəyidir). (Şualar, səh. 456)*

Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində də bildirildiyi kimi, hz. Mehdinin İslam əxlaqını bütün dünyaya hakim etməsi ilə birlikdə yer üzündə görünməmiş bir ədalət, dinclik və sülh mühitinin yaşanacağını ifadə edir. Hz. Mehdinin bu uca ədalətinə, haqq və doğruluqdan ayrılmamağına, dürüstlüyünə bütün dünya şahid olacaqdır. Bədiüzzaman hz. Mehdinin dünya səviyyəsində reallaşdıracağı bu vəzifəni **"baş sərkərdəlik"** sifətiylə reallaşdıracağını ifadə etmişdir. Bədiüzzaman bu sözləri ilə, hz. Mehdinin **"bütün dünya müsəlmanlarının liderliyini"** boynuna götürəcəyini yenidən izah edir. Bu mövzuda soruşulacaq bir neçə suala veriləcək cavablar hz. Mehdinin bu xüsusiyyətinin çox aydın bir şəkildə başa düşülməsini təmin edəcəkdir:

- Hz. Mehdinin **"baş sərkərdəlik"** sifətinə sahib olması nəyi ifadə edir?

Bədiüzzaman hz. Mehdinin bu sifətini xatırladaraq hz. Mehdinin bütün dünya müsəlmanları üzərində **"<u>idarəçi</u>"** mövqeyində çıxış edəcəyini yenidən aydın şəkildə ifadə edir.

- Hz. Mehdinin bütün dünyaya uca ədalətini və haqqaniyyətini göstərməsi necə reallaşacaqdır?

Uca bir ədalət anlayışının və haqdan ayrılmamağının bütün dünyaya göstərilməsi ancaq **"dünya səviyyəsində bir idarə gücüylə"** mümkün ola bilər. Bütün insanların hz. Mehdinin ədalət anlayışına şahid olmaları, hz. Mehdinin **"ədaləti təmin edə biləcək səlahiyyətlərə sahib bir mövqedə çıxış edəcəyini"** göstərir.

**<u>Batin təfsirçilərinə görə:</u>**

Bədiüzzamanın burada qeyd edilən bir neçə sözü belə, hz. Mehdinin İslam dünyasının lideri olacağı mövzusunda Bədiüzzamanın çox aydın ifadələri olduğunu açıqlayır. Buna baxmayaraq, Bədiüzzamanın sözlərinin müxtəlif formalarda təfsir edilərək, hz. Mehdinin bir mövqe sahibi olmayacağı fikrinin irəli sürülməsi Bədiüzzamanın risalələrdəki izahlarıyla tamamilə ziddiyyət təşkil edir. Bədiüzzamanın, hz. Mehdinin yerinə yetirəcəyini bildirdiyi yuxarıda qeyd olunan dünya səviyyəsindəki vəzifələrin hər biri hz. Mehdinin bu lider xüsusiyyəti ilə reallaşdıracağı vəzifələrdir.

Şübhəsiz ki, böyük mütəfəkkir Bədiüzzaman 13-cü əsrin mücəddididir. Ancaq özünün də Peyğəmbərimiz (s.ə.v)-in hədisləri istiqamətində izah etdiyi kimi, **"BÜTÜN MÜSƏLMANLARIN LİDERİ"** xüsusiyyətinə sahib olmasından söhbət getməmişdir. Allahın izni ilə bütün İslam aləmi üçün böyük müjdələr ehtiva edən bu hadisələr Axırzamanda hz. Mehdi vəsiləsiylə yaşanacaq və bu ünvana da hz. Mehdi sahib olacaqdır. Bədiüzzaman bu mövzunu bütün bu dəlilləriylə birlikdə izah edərək, özünün Axırzaman Mehdisi olmadığını aydın bir şəkildə ifadə etmişdir.

Bu gün dünyada 1 milyarddan çox müsəlman yaşayır. Dünya tarixində ilk dəfə olaraq müsəlmanlar sayca bu qədər çoxdurlar. Bu böyüklükdə bir kütləyə liderlik etmək tarixdə heç kimə nəsib olmamışdır. Bədiüzzamanın da müjdələdiyi kimi, bu şərəfli xüsusiyyətə Allahın izni ilə Axırzamanın **"Böyük Mehdisi"** sahib olacaqdır.

# BƏDİÜZZAMAN RİSALƏLƏRİN TƏFSİR EDİLMƏSİNƏ HANSI BAXIMDAN YANAŞIR? BƏDİÜZZAMAN HƏYATDA OLARKƏN RİSALƏLƏRİ TƏFSİR ETMƏ YANAŞMASINA İZN VERMİŞ OLA BİLƏRMİ?

Bədiüzzamanın əsərlərinin geniş kütlələr üzərində əmələ gətirdiyi səmimi təsir olduqca aydındır. Buna görə də insanlar üzərində belə böyük miqyasda təsir oyandıran əsərlərin, başa düşülməyən və ya çıxış yolu tapılmayan məlumatlar ehtiva etdiyini iddia edə bilmək heç cür mümkün deyildir. Bu həqiqətlər Bədiüzzamanın risalələrdəki açıq-aşkar sözlərini yenidən təfsir və şərh etmək kimi cəhdlərə heç cür ehtiyac olmadığını da aydın şəkildə ifadə edir. Üstəlik, kitab boyunca da izah edildiyi kimi, risalələrin batini təfsir məntiqiylə ikinci dəfə təfsir edilməsi bir çox baxımdan təhlükəli bir yanaşmadır.

Bədiüzzaman belə bir təfsir anlayışına qarşı çıxdığını dəfələrlə ifadə etmiş və belə bir cəhdə maneə törədilməsi üçün bu dünyagörüşünü izah edən sözlərini risalələrə köçürtdürmüşdür. Risalələrin hər təbəqədən, hər yaşdan, hər peşədən olan insanlar tərəfindən asanlıqla aydın ola biləcəyini ifadə etmiş, buna görə də sözlərinin ayrılıqda təfsir edilməsinə ehtiyac olmadığını ifadə etmişdir. Belə bir təfsir məntiqi ilə sözlərinin həqiqi mənasından uzaqlaşacağını xatırlatmış, bunun əvəzinə mövzularla əlaqədar bir izah lazımdırsa, bunun eyni səhifənin kənarında qeyd edilərək izah edilməsinin daha doğru olacağını demişdir. Hətta bu cür yeniləmələrin qarşısı alınmadığı təqdirdə risalələrdəki sözlərinin sui istifadəyə yol verəcəyini ifadə etmişdir.

Buna görə də Bədiüzzamanın risalələrdəki bütün sözlərinin, onun bu xatırlatmaları istiqamətində və risalələrdəki aydın izahlarına əsaslanaraq dəyərləndirilməsi lazımdır. Bunun xaricində, **"filankəsin yuxusu, filankəsin xüsusi söhbətlərdə eşitdikləri, filankəsə edilən xüsusi şərhlər"** kimi izahların heç bir etibarlılığı yoxdur. Bədiüzzamanın yazısını şəxsən təshih və təsdiq etdiyi əsərlərindəki sözləri dayanarkən, bunların əvəzinə hamısı bir-birindən fərqli şəxslərin ağzından nəql edilən bir-birindən fərqli şərhlərin əsas götürülməsi heç bir baxımdan doğru bir yanaşma tərzi olmaz.

Bu vəziyyət Bədiüzzamanın risalələrdə izah etdiyi hər mövzu üçün məqbuldur və Bədiüzzamanın hər bir sözü bu baxımdan dəyərləndirilməlidir. Bədiüzzamanın tələbələrindən Mustafa Hulusi Bədiüzzamanın bu mövzudakı düşüncələrini belə dilə gətirir:

***Ey müəllimlər və əhli qəlb! Soruşacağınız sualların cavabını Risalə-i Nurda tapa bilərsiniz. Əhli-kəşf (gözlə görülməyən qeybi həqiqətləri Allahın lütfü ilə kəşf edib bilən övliyalar) və ürəkdən biri, mənim kimi aciz bir insandan: -"nə vaxt gələcək..."-deyə Mehdini soruşar. Hələ ki, Mehdini anlaya bilməmişdi. Dabbətül-ərz kimlər olduğunu bilmir. Bunlara aid risalələrdə bir izah vardır. Hər çətin sualın cavabını o risalələrdə axtarsaz taparsınız.*** *(Mustafa Hulûsi, Barla Lahikası, səh. 143)*

Bədiüzzaman isə Əmirdağ Lahiqəsindəki bir sözündə hər mövzuda olduğu kimi bu mövzuda da ən doğru şərhlərin risalələrdə ola biləcəyini xatırlatmış, risalələrdə yazılanlar oxunduqda sanki özüylə görüşülmüş kimi ən doğru məlumatlara çatılacağını ifadə etmişdir:

***Risalə-i Nurun hər bir kitabı bir Səiddir. Siz hansı kitaba baxsanız, mənimlə üz-üzə görüşməkdən on dəfə çox həm faydalanar, həm də həqiqi bir surətdə mənimlə görüşmüş olarsınız. Risalə-i Nur mənə heç bir ehtiyac buraxmır.*** *(Emirdağ Lahikası, səh. 159)*

*...Çünki belə deyər:* ***Əgər mənimlə axirət üçün, Risalə-i Nur üçün görüşmək istəyirsə; Risalə-i Nur qətiyyən mənə ehtiyac buraxmamışdır. Milyonlarla nüsxənin hər biri on Səid qədər fayda verir...*** *(Emirdağ Lahikası-2, səh. 214)*

Bu sözlər bir çox mövzu kimi, Axırzaman və Mehdi mövzularında da lazım olan hər cür cavabın və Bədiüzzamanın bu mövzudakı bütün fikirlərinin risalələrdə ola biləcəyini və başa düşülə biləcəyini göstərir. Bu həqiqətə baxmayaraq, təkidlə risalələrin yetərli olmadığını ya da təfsirə ehtiyac olduğunu irəli sürməyin heç bir məntiqi yoxdur. Bədiüzzamanın hər sözü risalələr içərisində dəyərləndirilməli, izah etdiyi bir mövzunun cavabı yenə onun risalələrdəki hikmətli sözlərində axtarılmalıdır.

Həmçinin, belə bir təfsir məntiqinin Risalə-i Nur Külliyatı üzərində necə bir təsir oyadacağının yaxşı düşünülməsi lazımdır. Çünki belə bir səhv yanaşma ilə istənilən hər kəs bunu qanuni görərək Bədiüzzamanın hər sözünə öz ağlına görə fərqli bir izah gətirə bilər və bu şəkildə Bədiüzzamanın heç bir izahını qəbul etməyə bilər. İstənilən adam öz ağlına görə uyğun görmədiyi hər izahı şəxsi qənaətlərinə ya da ətraf mühitdən eşitdiklərinə görə təfsir etməyə başlayar. Mənfəətlərinə zidd olan və öz düşüncələriylə ziddiyyət təşkil edən, öz ağlına görə edəcəyi batini təfsirlərlə özünə Bədiüzzamanın sözlərindən dəlil tapmağa çalışa bilər.

Halbuki, çox aydındır ki, bir əsrin mücəddidi olan Allahın özünə xüsusi bir hikmət və elm bəxş etdiyi belə bir şəxsin bütün dünya müsəlmanlarını yaxından maraqlandıran əhəmiyyətli izahlarının batini təfsir adı altında səhv izah edilməsi olduqca təhlükəlidir. Belə bir dünyagörüşü risalələrin orijinal halından uzaqlaşmasına və müsəlmanların səhv məlumatlandırılmalarına səbəb olacaqdır. Bu da Bədiüzzamanın hikmətli sözlərinin və dəyərli izahlarının gərəyi kimi təqdir edilməməsinə və bir çox insanın onun üstün elmindən, fərasət və bəsirətindən gərəyi kimi istifadə edə bilməməsinə gətirib çıxaracaqdır. Şübhəsiz ki, Bədiüzzamanın şəxsinə və əsərlərinə qarşı göstəriləcək ən gözəl sevgi, hörmət və sədaqət, onun bütün müsəlmanlara buraxdığı dəyərli mirası olan Risalə-i Nur Külliyatına sahib çıxıb qorumaqla və onun həqiqətdə demək istədiklərini tam başa düşüb onu dəstəkləməklə mümkün olacaqdır.

# NƏTİCƏ

Hər təqvalı mömin **“Onlar deyərlər: “Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!”.** (Furqan surəsi, 74) ayəsinin hökmünə görə inananlara “liderlik etmək” istəyə bilər.

Bir şəxs müsəlmanları birləşdirirsə, onların başına keçərək Allahın izni ilə müsəlmanları düşdükləri sıxıntı və çətinliklərdən xilas edib, dinclik, ədalət, bolluq və rifaha qovuşdurursa, bu adama necə xitab olunduğu əhəmiyyətli deyildir. O şəxsə istər bir lider, istərsə də birləşdirici deyilsin, o hz. Mehdinin ən böyük əlaməti olan işi yerinə yetirmiş olacaqdır. Buna görə də, “yalnız ona xas olan işləri kim yerinə yetirsə, Mehdi o şəxsdir” şəklindəki bir yanaşma və hüsnü-zənn etmək doğru olacaqdır. Burada, əhəmiyyətli olan belə tarixi və müqəddəs bir vəzifənin yerinə yetirilməsidir. Buna görə də, müsəlmanlara Qızıl Əsri yaşadacaq şəxsin -adı nə olursa olsun-Mehdi olması ümid edilir və Peyğəmbərimiz (s.ə.v)-dən 1400 il sonra bunları bacaracaq adam üçün də “yəqin ki, Odur” deyə düşünülə bilər.

Bədiüzzaman da əsərlərində, gələcəyi hədislərdə dəqiq olaraq izah edilən hz. Mehdinin zühuru müjdələnməmiş olsaydı belə, zühurunun adətullaha (Allahın kainatda qoyduğu dəyişməz hökmlərə) uyğun olduğunu bu şəkildə ifadə etmişdir:

*Hər şeyə gücü çatan Allah, hz. Mehdi vəsiləsiylə də, İslam aləminin üzərindəki qaranlığı yox edə bilər. Bunu vəd etmişdir, əlbəttə ki, vədini yerinə yetirəcəkdir. Əgər dairə-i əsbab (səbəblər əsasında) və hikməti Rəbbaniyyə (Allahın diləməsi) cəhətdən düşünsək, yenə o qədər ağlabatan və reallaşmağa layiqdir ki,* ***əgər müxbir-i Sadiqdən (doğru sözlü olan Peyğəmbərimiz (s.ə.v)-dən) rəvayət edilməzsə belə, yəqin ki, elə olmaq lazım gəlir. Və əhli təfəkkür (alimlər, təfəkkür əhli) olacaq deyə hökm verər”.*** *(Mektubat, səh. 411-412)*

Həmçinin, bu vəziyyət sadəcə hz. Mehdi üçün deyil, hz. İsa üçün də məqbuldur. Xristianlıq dinini xurafatlardan təmizləyib, əslinə qayıtmasına vəsilə olan bir şəxs, həmçinin xristianların Qurana tabe olmasına, iki dinin mənsublarının ittifaqlarına vəsilə olsa və ana-atası da olmasa, bu şəxsin də hz. İsa olması ümid edilir. Nəticə etibarilə bu mübarək şəxslər Allahın izni ilə gələcək və talelərində olanı yerinə yetirərək İslam əxlaqının yer üzünə hakim olmasına vəsilə olacaqlar.

Bədiüzzaman da Allahın bu adətullahını bilərək əsərlərində hz. Mehdinin zühuru və İslam əxlaqının dünya hakimiyyətinə vəsilə olması mövzusunda heç bir şübhəsinin olmadığını ifadə etmiş və bu fikirlərini də ən aydın və ən hikmətli sözlərlə bütün müsəlmanlara təqdim etmişdir. Bədiüzzamanın olduqca açıq və səmimi ifadələrlə irəli sürdüyü bu həqiqətləri, heç bir dəlil olmadan, yalnız şərh, təvil və ya təfsir adı altında örtməyə çalışmaq və bu yolla da 30-40 ildən bəri, bəlkə də minlərlə insanın səhv istiqamətləndirilməsinə səbəb olmaq, əlbəttə ki, böyük bir məsuliyyətdir.

Buna görə də, batin təfsirçiliyinin kitab boyunca izah edilən bütün bu cəhətləri diqqətlə dəyərləndirilməli və Bədiüzzamanın sözlərinin həqiqi mənasıyla bütün müsəlmanlar tərəfindən başa düşülüb öyrənilməsinə şərait yaradılmalıdır. Allahın izni ilə olduqca yaxın bir zamanda Bədiüzzamanın bu müjdələri reallaşacaq, bütün dünya hz. Mehdinin liderliyi altında toplanacaq, Quran əxlaqının yaşanması ilə birlikdə anarxiya və qarışıqlıq mühiti bitəcək və yer üzünə dinclik və sülh hakim olacaqdır. Bütün İslam ümmətinin 1400 ildir ki, gözlədiyi bu tarixi şəxsin zühuru, o günə qədər səhv bir dünyagörüşüylə edilən bütün şərh və təfsirlərin əsassızlığını onsuz da aşkarlayacaq və Bədiüzzamanın sözlərinin hikmətini aydın şəkildə ifadə edəcəkdir. Ancaq əsl əhəmiyyətli olan bu mübarək şəxsin zühuru üçün bütün müsəlmanlarla birlik olub ən gözəl hazırlığı edə bilmək, bu tarixi və şərəfli hadisədə hz. İsanın və hz. Mehdinin dəstəkçilərindən və köməkçilərindən ola bilməkdir. Allahın Qurandakı hakimiyyət vədi və Peyğəmbərimiz (s.ə.v)-in müjdələri reallaşdığı vaxt əvvəlcə bu irəliləyişlərdən şübhə ilə yanaşan kəslərdən olmağın, adama dünyada və axirətdə məsuliyyət sahibi edəcəyinin və xəcalət yaşamasına səbəb ola biləcəyinin də unudulmaması lazımdır.

Hz. İsa və hz. Mehdinin Axırzamanın gözlənilən müqəddəs şəxsləri olduğu başa düşüldüyü vaxt Allahın izni ilə bütün dünya onları sevgiylə qucaqlayacaq, onları səmimiyyətlə qəbul edəcək, onlara və özlərini çağırdıqları Quran əxlaqına tabe olacaqlar. Əlbəttə ki, bu hadisələr baş verdiyi vaxt da bu mübarək insanlara dəstək ola bilmək çox böyük bir nemət və gözəllikdir. Amma unudulmamalıdır ki, əsas olaraq, bu şəxslərin gəlişindən əvvəl həqiqəti müdafiə edərək onlar üçün hazırlıq görmək də Allah qatında üstün bir qarşılığı ola bilər. Axırzamanın bu tarixi şəxslərinin ən yaxın köməkçilərindən ola bilmək üçün bütün müsəlmanların bir-birlərilə yarışmaları, həmçinin Quran əxlaqının da bir gərəyidir. Allah Quranda müsəlmanları məsul etdiyi xeyirli işlər görməkdə yarışmaq əxlaqını bizlərə belə bildirir:

**Hər kəsin üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Harada olursunuz olun Allah sizin hamınızı bir yerə toplayacaqdır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Bəqərə surəsi, 148)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik

olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar.

Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar

yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

### Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək

açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası,

əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah’ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

**Yaxın tarixin ən böyük İslam alimlərindən biri olan Bədiüzzaman Səid Nursi həzrətləri və yazmış olduğu Risalə-i Nur Külliyatı yüz minlərlə insanın hidayətinə vəsilə olmuşdur.**

**Risalə-i Nurlarda mövzuların izahındakı sadəlik və aydınlıq hər kəsin asanlıqla istifadə edə biləcəyi şəkildədir. Buna baxmayaraq, bəzi dairələrdə Bədiüzzamanın əsərlərinin şifrəli və mürəkkəb olduğu, buna görə də təfsirə ehtiyac olduğu istiqamətində səhv bir qənaət vardır.**

**Bədiüzzamanın aydın izahının arxasında batini mənalar gizləndiyi, buna görə də Bədiüzzamanın izah etmək istədiyi həqiqətlərin ancaq batini təfsir yolu ilə başa düşülə biləcəyi irəli sürülür, beləliklə də, əhəmiyyətli bir yanılma nümayiş etdirilir.**

**Halbuki, risalələr Bədiüzzaman Səid Nursi həyatda olarkən nəşr olunmuşdur. Bədiüzzaman əsərlərini şəxsən özü yeniləmiş və düzəltmiş, nəyin doğru olduğunu fikirləşdiysə və həqiqi qənaəti nə isə onları yazmışdır. Digər tərəfdən, Bədiüzzaman sözlərinin yenidən təfsir edilməsinin təhlükəli olacağını və buna qarşı olduğu istiqamətindəki fikirlərini əsərlərində aydın şəkildə bəyan etmişdir.**

**Bu kitabın məqsədi "batin təfsirçiliyi" mövzusunu ələ almaq, bu düşüncə ilə edilən təfsirlərin səhv olduğunu və bunların Bədiüzzamanın izahlarıyla ziddiyət təşkil etdiyini şəxsən Bədiüzzaman Səid Nursinin sözləri ilə ifadə etməkdir.**